

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı**




№ 07 - iyul 2021



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

№ 7 - iyul 2021

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri ....4
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....9


## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Azərbaycan-Türkiyə arasında hüquqi əlaqələr müttəfiqlik münasibətlərinə uyğun inkişaf edir ....10
Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib ....12
Ölkə Prezidentinin hücum diplomatiyası ilə bağlı tapşırıqları ədliyyə orqanlarının diqqət mərkəzindədir ....12
Rəqəmsal innovasiyaların tətbiqi vətəndaşların ədliyyə sisteminə əlçatanlığını asanlaşdırır ....14
Azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası üzrə görülmüş işlərə dair müşavirə keçirilib ....15
Penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir ....17
Cinayət işləri üzrə əməkdaşlığa dair beynəlxalq konfrans keçirilib ....19
Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı ....20
Hakimlərin Seçki Komitəsinin məlumatı....20
Narkomaniya ilə mübarizə tədbirlərinə dair ictimai müzakirə ....21
Probasiya nəzarətində olan məhkumların narkotik vasitələrin istifadəsindən çəkindirilməsinə xüsusi diqqət yetirilir ....21
Ədliyyə fəaliyyətinə dair onlayn brifinq keçirilib ....22
Bələdiyyələrin dayanıqlı inkişafı üzrə tədbirlər davam etdirilir ....24
"Kitab bizdən, oxumaq sizdən" devizi altında vətəndaş təşəbbüsü kampaniyası keçirilir ....25


## YENİ QANUNLAR, FƏRMANLAR...


“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ....26
“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanunu ....27
“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə“ Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD nömrəli Qanunu ....31
“Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 361-VIQD nömrəli Qanunu ....40
“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 364-VIQD nömrəli Qanunu ....40

# Prezident İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Daşkəsən rayonunda səfərdə olub. Dövlətimizin başçısı Daşkəsən şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, xatirəsini ehtiramla anaraq, abidəsi önünə gül dəstəsi düzüb. Həmçinin Daşkəsəndə həm Birinci Qarabağ savaşında, həm də Vətən müharibəsində həlak olan şəhidlərin dəfn olunduğu Şəhidlər xiyabanını ziyarət edib, əbədi məşəl abidəsi önünə gül dəstəsi qoyub.**



Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

Prezident İlham Əliyev "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olub. Qızıl mədənində görülən işlər barədə məlumat verilib ki, burada hasilat işlərinə 2016-cı ildən başlanıb, böyük yenidənqurma və infrastruktur işləri həyata keçirilib. Bu günədək 259 min unsiya qızıl istehsal edilib, növbəti illərdə isə əlavə 338 min unsiya qızılın istehsalı planlaşdırılır.

Bildirilib ki, 2017-ci ildə "Ağyoxuş-1" və "Ağyoxuş-2" qızıl yataqları, 2018-ci ildə isə "Mərəh" qızıl yatağı kəşf edilib. Bu ildən etibarən bir sıra yataqların istismara verilməsi planlaşdırılır.

Daha sonra "Made in Azerbaijan" nişanı ilə Azərbaycan qızılı və gümüşündən hazırlanan 5, 10 və 20





Daşkəsəndə “AzərGold” QSC-nin “Çovdar” İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanışlıq





Daşkəsən şəhərinin yenidən qurulan su və kanalizasiya sistemləri üzrə görülən işlərlə tanışlıq

qramlıq sikkələr, eləcə də qızıl külçələr nümayiş etdirilib. Üzərində Heydər Əliyev Mərkəzi, Qarabağ xalçası və Qobustan qayaüstü rəsmləri təsvir olunan sikkə və külçələr istehsal edilib. Heydər Əliyev Mərkəzi ilə birgə təşkil edilən "Qarabağ inciləri" sikkə dizaynı müsabiqəsinin nəticələrinə əsasən, daha iki dizaynda qızıl sikkələr istehsal olunub. Qızıl sikkələrin üzərində Qarabağın qədim memarlıq inciləri, tarixi abidələri, Şuşa şəhəri təsvir edilib.

Dövlətimizin başçısı "Mərəh" qızıl mədənində süxurların ilk partlayış prosesini izləyib, sonra Azərbaycan Televiziyasına müsahibə verib.

Azərbaycan Prezidenti müsahibəsində respublikamızın qərb bölgəsinə səfəri, istismara verilməsi nəzərdə tutulan infrastruktur layihələri - sənaye müəssisələrinin, idman obyektlərinin, yolların, içməli su və kanalizasiya xətlərinin açılışı barədə məlumat verib, cari ilin altı ayının sosial-iqtisadi yekunlarından bəhs edib.

Bildirib ki, artıq Azərbaycan iqtisadiyyatı tənəzzüldən çıxıb və altı ayın yekunları onu göstərir ki, iqtisadiyyatımız 2 faiz, qeyri-neft sektorumuz 5 faizdən çox, qeyri-neft sənayemiz 16,6 faiz, kənd təsərrüfatı isə 5,6 faiz artıb. İnflyasiya məqbul hesab edilən rəqəmlər ətrafındadır - 4,3 faiz. Altı ayda valyuta ehtiyatlarımız 1 milyard dollar həcmində artıb. Qeyd edib ki, genişmiqyaslı quruculuq işlərinin aparılmasına, Qarabağın və Şərqi Zəngəzurun sürətlə bərpa olunmasına baxmayaraq valyuta ehtiyatlarımız azaldılmamış, artırılmış və heç bir kreditə də müraciət olunmamışdır. Bu, resurs bazasının olması ilə yanaşı, vəsaitdən çox ehtiyatla istifadə edildiyini göstərir. "İsrafçılığa, lazım olmayan xərclərə yol vermirik. Vaxtilə nəzarətsiz olan xərclər artıq keçmişdə qalıbdır", - deyən dövlətimi-





Naftalan Mərkəzi Sanatoriyasının açılışı






Naftalanda körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi

zin başçısı diqqətə çatdırıb ki, bütün dövlət məmurları mənim təlimatlarımı icra etməlidirlər və edirlər ki, hər manata qənaət etməliyik. Lazım olmayan layihələrə, xeyir gətirməyən layihələrə, sadəcə, görüntü naminə, yaxud da ki, hansısa başqa maraqlar naminə dövlət investisiya xərcləri verilməyəcək.

Ölkə başçısı aparılan islahatlar nəticəsində 6 ayda vergi və gömrük orqanlarının nəzərdə tutulandan daha çox vəsait topladığını, bunun dürüstlüyün, şəffaflığın, uçotun, aparılan islahatların hesabına edildiyini qeyd edib, biznes qurumlarına dürüst, şəffaf işləmələri, kölgə iqtisadiyyatına yol verilməməsi, hər kəsin vergini ödəməsi ilə bağlı verilən tövsiyələri xatırladaraq diqqətə çatdırıb ki, hər hansı bir qanunsuz ödəmələr olmamalıdır. Heç bir dövlət məmuru hansısa biznes qurumuna sahiblik etməməlidir. Prezident İlham Əliyev əldə edilmiş bir milyard manatdan çox əlavə gəlirin hesabına sosial ödəmələrin, şəhid ailələrinin evlərlə təmin olunduğunu, maaşların, pensiyaların qaldırıldığını, infrastruktur layihələrinin icra edildiyini vurğulayıb.

Dövlətimizin başçısı müsahibəsində işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri barədə də məlumat verib. İlk növbədə, mina təmizləmə işlərinin görüldüyünü deyən dövlətimizin başçısı müharibədən sonra 150-yə yaxın Azərbaycan vətəndaşının minalara düşərək ya həlak olmasını, ya da öz sağlamlığını itirməsini təəssüflə qeyd edib, mina xəritələrinin Azərbaycana verilməməsini və bunun hansısa şərtlərlə verilməsini Ermənistan tərəfindən göstərilən növbəti əxlaqsızlıq, mənəviyyatsızlıq, vicdansızlıq, normal insani davranışa zidd olan yanaşma kimi dəyərləndirib.

Minatəmizləmə məsələlərinin əsas məsələlərdən olduğunu, bununla paralel olaraq bu ilin sonuna qədər azad edilmiş torpaqlarda - həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatının - yeni xətlərin, transformatorların, yarımstansiyaların, elektrik stansiyalarının qurulacağını, müharibədən sonra 8 ay ərzində yol infrastrukturu ilə bağlı görülən işləri, hava limanlarının tikintisini qeyd edib, Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevriləcəyini vurğulayıb.

Prezident İlham Əliyev həmçinin, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin üzv dövlətlərin dəvəti ilə daha bir il uzadılması, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə səfəri və Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri, iyulun 20-də Rusiyaya işgüzar səfərinin nəticələri, postmünaqişə dövrü ilə bağlı müxbirin suallarını cavablandırıb.

Səfər çərçivəsində Azərbaycan Prezidenti "Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi üzrə görülən işlərlə tanış olub. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Daşkəsən şəhərində 12 min nəfərin içməli və tullantı su xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Daşkəsən şəhərini, həmçinin ətraf kəndləri keyfiyyətli içməli su ilə təmin etmək



Goranboyda Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun açılışı



Goranboy Olimpiya İdman Kompleksinin açılışı

üçün Qarainək bulaqları və Gurbulaq su mənbəyində 5 suqəbuledici qurğu inşa edilib. Mənbədən şəhərə 20 kilometrdən çox uzunluğu olan magistral su kəməri çəkilib, 2030 ünvana birləşmə verilərək sayğaclar quraşdırılıb. Hazırda yeni yaradılmış su təchizatı sistemi ilə şəhərin 10 mindən artıq sakini fasiləsiz içməli su ilə təmin edilir. Layihə çərçivəsində Daşkəsən şəhərində 11,5 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi də qurulub. Daşkəsən Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilib. Yeni yaradılmış infrastruktur hesabına rayonun Alunitdağ qəsəbəsinə də içməli suyun verilməsi təmin edilib.

Prezident İlham Əliyev qərb bölgəsinə səfəri çərçivəsində Naftalan şəhərində olub. Xalqımızın ulu öndəri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edən dövlətimizin başçısı istismar müddəti başa çatmış Naftalan şəhər hava limanına da baxıb. Məlumat verilib ki, 1977-ci ildə istismara verilən hava limanı 1997-ci ilə qədər erməni qəsbkarları tərəfindən dəfələrlə atəşə tutulub. Bu, limanda təyyarələrin enmə və qalxması üçün real təhlükəyə çevrilib. 1997-ci ildə isə hava limanının fəaliyyəti dayandırılıb.

İyulun 22-də Naftalan Mərkəzi Sanatoriyasının açılışı olub. Mərasimində iştirak edən Azərbaycan Prezidentinə məlumat verilib ki, şəhərin əsasını sanatoriya-kurort infrastrukturu təşkil edir. Mərkəz bir çox terapiya sahələrini özündə birləşdirməklə, müxtəlif xəstəliklərin müalicəsi üçün sağlamlıq-profilaktik müəssisəyə çevrilir. Yeni müəssisədə 50 nəfərə yaxın personalın çalışması şəhər əhalisinin məşğulluğunun təmin olunmasına mühüm töhfədir.

Həmin gün Naftalan şəhərində 200 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib. Dövlətimizin başçısı tədbirdə iştirak edib. Müasir standartlara





**Gəncədə Ermənistanın raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanışlıq**

uyğun qurulan bağçada azyaşlıların təlim-tərbiyəsi və onların sağlam vətəndaş kimi yetişmələri üçün hər cür şərait var.

Sonra Goranboy rayonuna səfər edən ölkə başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Goranboy şəhərindəki abidəsini ziyarət edib, Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun və Goranboy Olimpiya İdman Kompleksinin açılışlarında iştirak edib.

Yolun inşası ilə bağlı görülən işlər barədə ölkə rəhbərinə məlumat verilib ki, ümumi uzunluğu 38 kilometr olan yol iki hərəkət zolaqlıdır. Avtomobil yolunun tikintisi 8 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edəcək.

Olimpiya İdman Kompleksinin açılışında isə bildirilib ki, inşasına 2014-cü ildə başlanılan bu kompleksin ərazisi 3 hektardan çoxdur. Sahəsi 9137 kvadratmetr olan kompleksdə böyük idman korpusu yerləşir. Universal idman zalı 905 tamaşaçı tutumludur. Bu zal basketbol, voleybol, həndbol, mini futbol idman növləri üzrə məşqlərin və yarışların keçirilməsinə imkan verir. Eyni zamanda, cüdo, taekvondo, sambo, karate, kikboksinq və digər idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulub.

Kompleksə üzgüçülük hovuzu da daxildir. Burada 200-dən çox tamaşaçının yarışları izləməsi üçün hər cür şərait var. Burada, həmçinin güləş, boks, fitnes-trenajor, aerobika, gimnastika və rəqs zalları, şahmat otağı, konfrans zalı və digər otaqlar yaradılıb. Ərazidə üçmərtəbəli, 44 yerlik mehmanxana da fəaliyyət göstərəcək. Burada da idmançıların və qonaqların istirahəti üçün bütün imkanlar var. Futbol stadionunun tribunası 1141 tamaşaçı yerlikdir. Bundan əlavə, iki mini futbol meydançası da qurulub. Voleybol-basketbol meydançası, həmçinin uşaq əyləncə meydançası yaradılıb. Kompleksdə fiziki imkanları məhdud idmançılar və tamaşaçılar üçün də müvafiq şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qərb bölgəsinə səfəri zamanı Gəncə şəhərində olub. Dövlətimizin başçısı Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olub.

Düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Erməni faşizminin izləri ilə tanış olan Prezident İlham Əliyev həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, tamamilə dağılmış yaşayış binalarının ətrafına gül düzüb.

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İnsanları humanizmə, mərhəmətə və vəhdətə dəvət edən Qurban bayramında müsəlmanlar Haqq yolunda, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Ulu Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca




tutulmuşdur. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş etmişdir.

Əziz bacı və qardaşlarım!

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik. Xalqımız şəhidlərimizin şərəfli adını heç zaman unutmayacaq, onların ailələri və qazilərimiz dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunacaqdır. Əminəm ki, ölkəmizin rifahı, firavanlığı üçün edilən dualar, torpaqlarımızın işğaldan azad olunmasının doğurduğu Qələbə ovqatı və Allaha şükranlıq hissi ilə kəsilən qurbanlar cəmiyyətimizdə milli-mənəvi həmrəylik ruhunu daha da gücləndirəcək, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Dua və niyyətlərinizin Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hamınıza xoşbəxtlik, ailələrinizə əmin-amanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 iyul 2021-ci il*

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində Qurban bayramı münasibətilə paylaşım edib.**

"Əziz həmvətənlər! Sizi və bütün dünya müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bu mübarək bayram günlərində sizin bütün xoş arzu və niyyətlərinizlə həmrəy olduğumu bildirir, hər birinizə möhkəm cansağlığı, tükənməz sevgi, gözəl əhval-ruhiyyə və bol






sevincli anlar arzulayıram. Allah bütün dualarınızı və qurbanlarınızı qəbul etsin, bütün insanlara sağlıq və səadət, hər bir ölkəyə sülh, əmin-amanlıq və xoş günlər bəxş etsin! Xalqımızın Vətən uğrunda qəhrəmancasına həlak olmuş igid oğullarının xatirəsini ehtiramla yad edir, onların doğmalarına və yaxınlarına səbir diləyirəm. Uca Tanrı hər zaman dünyamızı qorusun!"

# Azərbaycan-Türkiyə arasında hüquqi əlaqələr müttəfiqlik münasibətlərinə uyğun inkişaf edir

**Dost və qardaş Azərbaycan və Türkiyə Ədliyyə nazirlikləri tərəfindən sıx əməkdaşlıq edilir, nümayəndə heyətlərinin müntəzəm səfərləri və birgə tədbirlər keçirilir, səmərəli hüquqi yardım göstərilir.**

İki ölkənin ədliyyə orqanları arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Türkiyə Ədliyyə Akademiyasının rektoru Muhittin Özdemir rəhbərlik etdiyi nümayəndə heyəti ilə 4-7 iyul tarixlərində Azərbaycanda səfərdə olub.

Səfər zamanı qonaqlar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyublar. Həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarını və şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsini ziyarət ediblər.




Sonra nümayəndə heyəti Ədliyyə Akademiyasında olub, qarşılıqlı fəaliyyətə dair müzakirələr aparılıb, hüquqşünasların təliminə, tədris proqramlarına, müasir İKT-lər tətbiq olunmaqla videokonfrans formatında distant treninqin keçirilməsinə, o cümlədən Elektron Tədris Platformasına dair təqdimatlar keçirilib.

Tədbirdən sonra iki ölkənin Ədliyyə akademiyaları arasında hakimlər, prokurorlar və hakimliyə namizədlərin tədrisi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Memorandum hüquqşünasların ixtisaslarının artırılmasını, birgə tədris proqramlarının həyata keçirilməsini, simpozium, təlim, seminar və digər



tədris tədbirlərinin və təcrübi səfərlərin təşkilini, onların pandemiya şəraitinə uyğun bilavasitə və ya videokonfrans formatında keçirilməsini nəzərdə tutur.

İyulun 5-də nümayəndə heyəti ilə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun görüşü keçirilib.

Ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu bildirən nazir dostluq və qardaşlıq münasibətlərimizin Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və xalqımızın ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi ilə uğurla inkişaf etdiyini, bu əlaqələrin möhkəmləndirilməsində Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın xüsusi rolunu vurğulayıb, 44 günlük Vətən müharibəsində Türkiyə Prezidenti başda olmaqla türk xalqının, qardaş ölkənin bütün yüksək rəsmi şəxslərinin, o cümlədən ədliyyə naziri Abdulhamit Gülün mənəvi və siyasi dəstəyini qeyd edib.

F.Məmmədov ötən ay Türkiyə Prezidentinin Şuşaya səfərini, Azərbaycan-Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi ilə əlaqələrimizin müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb, müstəsna siyasi və tarixi əhəmiyyətə malik olan bu mühüm sənədin müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar açdığını söyləyib. Bildirib ki, Şuşa Bəyannaməsi rəhbər tutularaq



yenicə imzalanmış Anlaşma Memorandumu ədliyyə sahəsində ilk sənəd olmaqla əlaqələrimizin dərinləşməsinə xidmət edir.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən qonaq özünü doğma Vətənindəki kimi hiss etdiyini, qədim köklərə malik olan xalqlarımızın bir-biri ilə yaxşı anlaşdığını və dəstəklədiyini qeyd edib, Azərbaycan-Türkiyə əlaqələrinin Şuşa Bəyannaməsi ilə bir daha tarixi zirvəyə çatdığını vurğulayıb. M.Özdemir Vətən müharibəsində Azərbaycanın qələbəsindən çox şad olduğunu bildirərək iki qardaş ölkənin birlikdə zəfərlərə bundan sonra da imza atacağına əminliyini söyləyib.

Görüşdə məhkəmə-hüquq islahatları barədə fikir mübadiləsi aparılıb, Azərbaycanda hakimlərin şəffaf seçiminə toxunularaq, onların tədrisində qardaş ölkənin Ədliyyə Akademiyasının dəstəyi, o cümlədən hakimliyə namizədlərin Türkiyədə təlimlər keçməsi məmnunluqla qeyd edilib. Qonaq hüquqi əlaqələrə böyük önəm verərək bu sahədə daha sıx qarşılıqlı fəaliyyət göstərməyə hazır olduğunu bildirib, yaxşı təcrübələrin mübadiləsinin hər iki tərəf üçün faydasını vurğulayıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş xüsusi stendlərlə tanış olublar.

Tədbirdə Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı iştirak edib.

Səfər çərçivəsində qonaqların Ali Məhkəmədə, Baş Prokurorluqda, Məhkəmə-Hüquq Şurasında və Hakimlərin Seçki Komitəsində rəsmi görüşləri olub. Nümayəndə heyəti həmçinin, müasir məhkəmə infrastrukturu, o cümlədən yeni istifadəyə verilmiş Suraxanı Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə sistemi, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi ASAN mərkəzinin fəaliyyəti, eyni zamanda Heydər Əliyev Mərkəzi, Vətən müharibəsində xalqımızın Böyük Qələbəsinin və ordumuzun qəhrəmanlığının təcəssümü olan Hərbi Qənimətlər Parkı, eləcə də paytaxtın mədəni və tarixi abidələri ilə tanış olub.

# Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, pandemiya şəraiti nəzərə alınaraq müraciətlərə elektron qaydada baxılması təmin edilir, mütəmadi videoqəbullar keçirilir.**

İyulun 14-də ədliyyə naziri Fikrət Məmmədov paytaxtda və müxtəlif bölgələrdə yaşayan vətəndaşları videoformatda qəbul edib.

Regional ədliyyə idarələri vasitəsilə videoqəbula qoşulan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Vətəndaşların müraciətlərinin dinlənilməsinin videokonfrans şəkildə təşkilindən məmnunluqlarını bildirib, onların qayğılarına həssaslıqla və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Ölkə Prezidentinin hücum diplomatiyası ilə bağlı tapşırıqları ədliyyə orqanlarının diqqət mərkəzindədir

**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz sərkərdəliyi sayəsində Vətən müharibəsində parlaq qələbə qazanan ölkəmiz bu gün özünün ən qüdrətli dövrünü yaşayır, münaqişə həll olunaraq bölgədə yeni reallıqlar yaranıb. Dövlət başçısının rəhbərliyi ilə Qarabağ regionunda nəhəng quruculuq işləri aparılır.**

Eyni zamanda, Azərbaycan həqiqətləri, düşmənin torpaqlarımızda törətdiyi müharibə, insanlıq əleyhinə və digər cinayətləri dünya ictimaiyyətinin geniş diqqətinə çatdırılır, bu prosesdə həmçinin, vətəndaş cəmiyyəti institutları yaxından iştirak edirlər.

Bununla bağlı ədliyyə nazirinin müavini Toğrul Musayevin sədrliyi ilə iyulun 29-da keçirilən aidiyyəti işçilərin iştirak etdiyi müşavirədə ölkə başçısının hücum diplomatiyasından






və ictimai iştirakçılıqla bağlı tapşırıqlarından irəli gələn ədliyyə orqanlarının vəzifələri müzakirə olunub.

Çıxış edən nazir müavini bildirib ki, cənab Prezidentin qəti iradəsi, müdrik xarici siyasəti və bənzərsiz diplomatik məharəti, xalqımızı dəmir yumruq kimi sıx birləşdirməsi, qələbəmizin rəmzinə çevrilmiş şüarları və müraciətləri, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın vətənpərvər və sosial çağırışları hər bir azərbaycanlını düşmənlə mübarizəyə, Azərbaycanın mövqeyini təkcə döyüş meydanında deyil, həmçinin beynəlxalq müstəvi-




də, informasiya savaşında qorumağa səfərbər edir.

O, xüsusi vurğulayıb ki, yeni hədəflərə nail olmaq üçün ölkə rəhbəri tərəfindən hücum siyasətinin müəyyən olunması beynəlxalq müstəvidə daha fəal iş aparılmasını, hadisələrə çevik və tutarlı münasibət bildirilməsini, bütün istiqamətlər üzrə fəaliyyətin bu tələblərə uyğun qurulmasını labüd edir.

Bununla əlaqədar Ədliyyə

Nazirliyi tərəfindən ölkəmizin həqiqətlərinin təbliği, Ermənistanın qanunsuz əməllərinin ifşa edilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir.

Bu sahədə görülən işlər barədə məlumat verən Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilov müharibə və post-konflikt dövründə respublikamızın ədliyyə naziri tərəfindən xarici həmkarlarına və nüfuzlu beynəlxalq təşkilatlara 400-dən çox müraciətlər, BMT, Avropa Şurası və digər mötəbər qurumların təşkil etdiyi yüksək səviyyəli tədbirlərdə çıxışlar edilərək Ermənistanın müharibə və insanlıq əleyhinə cinayətlərinə reaksiya verməyə, azad olunmuş torpaqlarımızda işğal dövründə quraşdırdıqları mina xəritələrinin verilməsi üzrə beynəlxalq öhdəliklərini yerinə yetirməsi üçün təsir göstərməyə çağırışlar edildiyini vurğulayıb.

Bildirib ki, nazirliyin müraciətləri reaksiyasız qalmamış, onlara münasibət bildirilərək regionumuza humanitar yardım göstərilməsi vurğulanmış, xarici muzdluların münaqişə zonasına cəlb olunması pislənilmiş, mülki əhalinin, o cümlədən minaya düşərək həlak olmasından narahatlıq ifadə edilmişdir.

Həmçinin Ermənistanın törətdiyi cinayətlərin ölkəmizdə araşdırılması ilə bağlı 40-a yaxın dövlətlərdə zəruri istintaq hərəkətlərinin aparılmasına dair nazirlik tərəfindən onlarla sorğu göndərildiyi, ümumilikdə isə, cari ildə mülki, ailə və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımla bağlı 10.000-dən çox sənəd icra olunduğu bildirilib.

Ötən ay Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair imzalanmış Şuşa Bəyannaməsinin əməkdaşlıq üçün yeni imkanlar yaratdığı, iki ölkənin Ədliyyə akademiyaları arasında imzalanmış Anlaşma Memorandumunun bu tarixi Bəyannaməyə istinad olunan ilk sənədlərdən olduğu vurğulanıb. Həmçinin Özbəkistanın məhkəmə-hüquq sistemində nailiyyətlərimizə və müsbət təcrübəmizə böyük marağı nəzərə alınaraq ölkələrimizin Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq Proqramı imzalanıb. Hazırda Avropa, Asiya və Afrika qitələrindən 33 dövlətin Ədliyyə nazirlikləri ilə imzalanmış sənədlər əsasında səmərəli əməkdaşlıq həyata keçirilir.

Müşavirədə Azərbaycan həqiqətlərinin təbliği məqsədilə nazirlik tərəfindən aparılan "Qarabağ Azərbaycandır!" üç dilli (Azərbaycan, ingilis və rus) elektron məlumat platformasının interaktiv fəaliyyəti, Vətən müharibəsində parlaq qələbəmizə, Müzəffər Ali Baş Komandanın hərbi, siyasi, diplomatik uğuruna həsr olunan maarifləndirici tədbirlərin keçirildiyi, əyani vəsaitlərin hazırlandığı, o cümlədən "Azərbaycan ədliyyəsi Vətən müharibəsində" və üç dildə "Azərbaycan tarix yazır: yolumuz Qarabağadır" adlı kitabların çap edildiyi diqqətə çatdırılıb, bu zaman vətəndaş cəmiyyəti institutlarının, KİV-lərin və sosial platforma imkanlarından geniş istifadə edildiyi bildirilib.

Qeyd olunub ki, cari ildə nazirlik tərəfindən aparılmış hüquqi maarifləndirmə işinin sayı 3.200-ə yaxın olub, o cümlədən KİV-də 2.800-dək çıxışlar edilib. Həmçinin sosial media hesablarında Böyük Qələbəyə, Ermənistanın qanunsuz əməllərinin ifşasına, azad edilmiş torpaqlarımızın dirçəldilməsi ilə bağlı görülən işlərə və nazirliyin digər istiqamətlərdə fəaliyyətinə dair 450-dək paylaşımlar edilib, rəsmi internet saytından (justice.gov.az) bəhrələnənlərin sayı 400 mini ötüb.

Tədbirə yekun vuran nazir müavini T.Musayev bu sahədə fəaliyyətin ölkə başçısının müəyyən etdiyi yeni çağırışlara uyğun qurulması və işin səmərəliliyin artırılması, informasiya və vahid kommunikasiya siyasətinin həyata keçirilməsi, Azərbaycan həqiqətlərinin post-konflikt dövründə dünyaya geniş çatdırılması, beynəlxalq müstəvidə və informasiya platformalarında daha fəal iş aparılması ilə bağlı konkret tapşırıqlar verib.

Azad edilmiş ərazilərin bərpası və digər məsələlərin həlli ilə bağlı yaradılmış və nazirliyin rəhbərliyinin təmsil olunduğu Əlaqələndirmə Qərargahı və onun nəzdində İdarələrarası Mərkəz çərçivəsində görülən tədbirlərə toxunularaq bu istiqamətdə fəaliyyətin aktivləşdirilməsinin vacibliyi vurğulanıb.

Bundan əlavə, beynəlxalq müqavilələrdən, insan hüquqlarına dair konvension öhdəliklərdən irəli gələn vəzifələrin mütəşəkkil icrası, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, həmçinin ədliyyə sahəsində ictimai iştirakçılıq mexanizmlərinin təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı digər zəruri tədbirlər müəyyən edilib.

# Rəqəmsal innovasiyaların tətbiqi vətəndaşların ədliyyə sisteminə əlçatanlığını asanlaşdırır

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəqəmsal cəmiyyətin inkişafı, müasir İKT-dən istifadə etməklə əhaliyə elektron xidmətlərin göstərilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinə xüsusi önəm verilir, müxtəlif reyestrlər, elektron informasiya resursları aparılır, ədliyyə xidmətlərinin keyfiyyəti daim təkmilləşdirilərək dairəsi genişləndirilir.**

İyulun 26-da ədliyyə nazirinin müavini Eldar Nuriyevin sədrliyi ilə keçirilən müşavirədə bu sahədə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub, müasir texnoloji yeniliklərin tətbiqinin vətəndaşların ədliyyə sisteminə əlçatanlığının asanlaşdırılmasına, şəffaflığın təmin olunmasına xidmət etdiyi bildirilib.

Nazirliyin İnformasiya və kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə məruzə ilə çıxış edərək ötən dövrdə ədliyyə sahəsində tətbiq olunan innovasiyalar, onların səmərəli təşkili ilə bağlı görülən tədbirlər barədə məlumat verib.

Qeyd edib ki, cari ildə əhalinin hüquqi biliklərinin artırılması məqsədilə milli qanunvericiliyin yeni, funksionallığı və əlçatanlığı ilə fərqlənən vahid elektron bazası (e-qanun.az) istifadəyə verilib və həmin resursa daxilolmaların sayı 1,1 milyonu ötüb.




Eyni zamanda "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin ədalət mühakiməsinin səmərəsini artırdığı, şəffaflığı və operativliyi təmin etdiyi, proses iştirakçılarına "şəxsi kabinetə" sahib olmaqla tərəf olduqları işlər barədə məlumatları elektron qaydada əldə etmək, prosesdə videokonfrans formatında iştirak etmək imkanı yaratdığı vurğulanıb, indiki pandemiya şəraitində bu innovasiyaların tətbiqinin xüsusi əhəmiyyəti qeyd olunub. Bildirilib ki, məhkəmələrin həmçinin, e-məhkəmənin digər dövlət qurumları ilə qarşılıqlı inteqrasiyası hesabına zəruri sənədləri ani vaxt rejimində əldə etməsi insanların rahatlığına xidmət etməklə əlavə vaxt itkisinin qarşısını alır.

Həmçinin informasiya sisteminin keyfiyyətli və dayanıqlı fəaliyyəti diqqətdə saxlanılır, e-məhkəmə istifadəçiləri üçün yaradılmış "qaynar xətt" vasitəsilə daxil olan müraciətlərə operativ baxılaraq zəruri tədbirlər görülür.

E-məhkəmənin tərkib hissəsi olan "Elektron icra" sisteminin tətbiqi məhkəmə qərarlarının icrasının səmərəsini artırıb, sistem müxtəlif orqanlarla inteqrasiya edilərək zəruri sənədləri, o cümlədən borclunun avtonəqliyyat vasitələrinə, əmək haqqı, pensiya və digər ödənişlərinə, daşınmaz əmlakına və s. məlumatlarına dair sənədləri dərhal onlayn qaydada almağa imkan verir. Sistemin funksionallığı artırılaraq vətəndaşlara tərəf olduqları icra işlərinin gedişatını izləmək, görülən icra tədbirləri barədə məlumatları əldə etmək imkanı yaradılıb.

Tədbirdə həmçinin, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin geniş tətbiqi, cari ildə məhkumların e-

qolbaqla tam təmin edildiyi qeyd olunub, həmçinin ictimai işlərin yerinə yetirilməsi vəziyyətinin izlənilməsinə və cəza çəkməkdən yayınma hallarının dərhal aşkar olunmasına imkan verən xüsusi monitorinq qurğusunun istifadəsinə başlanıldığı və artıq 140 nəfərə yaxın şəxsə bu elektron vasitənin tətbiq olunduğu diqqətə çatdırılıb.

Bundan əlavə böyük vətəndaş məmnunluğu doğuran "Mobil notariat" tətbiqinin funksionallığının daim təkmilləşdirildiyi, artıq insanların bir sıra hüquqi, o cümlədən müxtəlif etibarnamələrin, razılıq ərizələrinin əldə edilməsi ilə bağlı xidmətlərdən notariata getmədən mobil telefonla yararlandığı bildirilib, 120 mindən çox istifadəçisi olan "Mobil notariat" vasitəsilə birinci yarımildə on minlərlə notariat hərəkətinin rəsmiləşdirildiyi qeyd olunub.

Nazirlik tərəfindən əhaliyə göstərilən 30-dan çox elektron ədliyyə xidmətlərindən bəhrələnənlərin sayı birinci yarım ildə 500 mindən çox təşkil etdiyi, vətəndaşların daha çox Azərbaycan adları, Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması və Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatların verilməsi ilə bağlı e-xidmətlərdən faydalandığı, hazırda onların sayının artırılması üzrə işlərin davam etdirildiyi vurğulanıb.

Müşavirəyə yekun vuran nazir müavini dövlət başçısının tələblərinə uyğun olaraq işin səmərəliliyinin artırılması, maliyyə intizamının gücləndirilməsi, dövlət vəsaitlərindən qənaətlə istifadə edilməsi, kadr potensialının peşəkar İKT mütəxəssisləri hesabına möhkəmləndirilməsi, innovasiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı konkret tapşırıqlar verib.

# Azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası üzrə görülmüş işlərə dair müşavirə keçirilib

**İyulun 26-da Ədliyyə Nazirliyində Probasiya Xidməti tərəfindən cari ilin birinci yarımilində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası üzrə görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.**



Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Eldar Nuriyev ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli tərəqqisini vurğulayıb, məhkəmə-hüquq islahatlarının, cəza siyasətinin humanistləşdirilməsi üzrə tədbirlərin davam etdirildiyini qeyd edib.

Müşavirədə Probasiya Xidmətinin rəisi, baş probasiya məmuru Akşin Ziyadov hesabat məruzəsi ilə çıxış edərək azadlığın məhdudlaşdırılması və digər alternativ cəzaların icrasının diqqətdə saxlanıldığını, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə elektron nəzarət vasitələrinin tətbiqinin genişləndirildiyini bildirib.

Probasiya sahəsində işin daha səmərəli təşkili və nəzarə-

tin gücləndirilməsi məqsədilə Bakı Şəhər Probasiya İdarəsinin yaradılaraq fəaliyyətə başladığını, həmçinin işğaldan azad olunmuş ərazilərdə ədliyyə orqanlarının fəaliyyətinin bərpası ilə bağlı tədbirlər çərçivəsində Qarabağ regional ədliyyə idarəsinin yurisdiksiyasına daxil olan Ağdam və Füzuli rayon icra və probasiya şöbələrinin işinin səmərəli təşkilində əməli və metodiki köməklik göstərildiyini vurğulayıb.

Bildirilib ki, 2021-ci ilin birinci yarımilində 4.600-dən artıq şəxs probasiya qeydiyyatına götürülüb, onlardan 2.100-ü azadlığın məhdudlaşdırılması, 450-dan çoxu nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, 425-i cərimə, 500-ə yaxın islah və ictimai işlər, habelə digər cəzalara məhkum edilmiş şəxslər olub. Hesabat dövründə cərimə və islah işlərinin icrası ilə bağlı dövlət büdcəsinə 660 min manatdan çox vəsaitin ödənilməsi təmin olunub.

3.300-dən çox şəxs isə cari ildə cəza müddətinin başa çatması ilə əlaqədar probasiya qeydiyyatından çıxarılıb, cəzanın icrasından boyun qaçırdığına və elektron nəzarət vasitəsilə aşkar olunan cəza çəkmə qaydaları üzrə pozuntulara yol verdiyinə görə 300-dən artıq məhkumun cəzası daha ağır, o cümlədən yarıdan çoxu azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib.

Həmçinin, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi genişlənərək 2021-ci ildə həmin cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 2.900-ə yaxın şəxsə elektron qolbaq tətbiq edilib, cəza müddəti bitən və digər qanuni əsaslara görə 1.070 məhkumdan isə qolbaqlar çıxarılıb. Hazırda 4.000-dək məhkum elektron qolbaq daşıyır və onların üzərində dönmədən probasiya nəzarəti həyata keçirilir.

Bundan əlavə, məhkəmə qərarları ilə ictimai işlər növündə cəza və inzibati tənbeh kimi tətbiq edilmiş 380 nəfərə yaxın şəxs probasiya qeydiyyatına alınıb. Bu növ cəza və inzibati tənbehin icrası ilə bağlı həmin şəxslər şəhər və rayon ərazilərinin, küçə, park və meydanların, yolların abadlaşdırılması və təmizlənməsi, məişət tullantılarının daşınması, təmir və tikinti, habelə kənd təsərrüfatı müəssisələrinə kömək göstərilməsi ilə bağlı işlərə cəlb olunmaqla 76 min saatdan çox ictimai işlərin yerinə yetirilməsi təmin edilib.

Nazirlik tərəfindən bu sahədə nəzarəti gücləndirmək, cəzanın formal icrasının qarşısını almaq məqsədilə mütəxəssislərlə birgə elektron nəzarət qurğusu hazırlanaraq səmərəli tətbiq olunur. Belə ki, bu innovasiya cəza çəkən şəxsin ictimai işləri yetirməli olduğu əraziyə daxil olarkən əl-barmaq izi ilə aktivləşərək onun işlədiyi ərazi və vaxt avtomatik Xidmətin Monitorinq Mərkəzində qeyd edilir. Bununla həmçinin, cəza çəkməkdən yayınma hallarının qarşısı alınır.

İclasda görülmüş işlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd edilib, mövcud problemlərlə bağlı Probasiya Xidmətinin məsul işçiləri və yerli qurumların rəhbərləri dinlənilib, azadlıqdan məhrumetməyə alternativ, o cümlədən islah və cərimə işləri növündə cəzaların icrasına diqqətin artırılması, məhkumun cəzadan yayınmasının qarşısının alınması, onlarla aparılan islah və tərbiyə işinin səmərəliliyinin yüksəldilməsi tapşırılıb.

Müşavirəyə yekun vuran nazir müavini xidmətin işinin dövlət başçısının tələblərinə uyğun təkmilləşdirilməsi, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, probasiya məmurlarının peşəkarlığının artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı konkret göstərişlər verib, etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyini, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini vurğulayıb.

# Penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir

**İyulun 27-də Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Baş idarəsində 2021-ci ilin birinci yarımili ərzində fəaliyyətin yekunları üzrə videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib.**



Müşavirədə Xidmətin Baş idarəsinin, eləcə də tabe qurumların rəhbər heyəti və Ədliyyə Nazirliyinin məsul əməkdaşları iştirak ediblər.

Ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov müşavirəni açaraq Penitensiar sahədə əldə olunmuş nailiyyətlər, həyata keçirilmiş mühüm yeniliklər və qarşıda duran hədəflər barədə məlumat verib.

Nazir müavini Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə etdiyimiz parlaq qələbəmizlə tarixi ədalətin bərpa olunduğunu bildirib. Qeyd olunub ki, işğaldan azad olunmuş torpaqlarımızın bərpası, sosial-iqtisadi dirçəliş dövlətimizin qarşısında duran ən mühüm vəzifələrdən biri olmaqla bu istiqamətdə nəhəng işlər həyata keçirilir. Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mühüm layihələr reallaşdırılır, mədəni-tarixi irsimizin təbliği, şəhid ailələrinə dəstək və qazilərimizin müalicəsi yüksək səviyyədə təşkil olunur.

Vurğulanıb ki, ölkə Prezidentinin rəhbərliyi ilə respublikamızın davamlı iqtisadi inkişafı təmin olunur, bütün sahələrdə mütərəqqi islahatlar uğurla davam etdirilir.

Penitensiar sahədə də islahatlar, infrastrukturun yenilənməsi, fəaliyyətin təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilir.

Cari ildə Penitensiar xidmət qarşısına qoyulan vəzifələri uğurla yerinə yetirib, fəaliyyətin səmərəliliyi artırılıb. Operativ Qərargahın göstəriş və tövsiyələri rəhbər tutulmaqla bütün qurumlarda profilaktik tədbirlər davam etdirilib. Görülmüş tədbirlərin nəticəsi olaraq koronavirus infeksiyası penitensiar müəssisələrdə və əməkdaşlar arasında geniş yayılmayıb. Yaş qrupları üzrə işçi heyətin və məhbusların mərhələli şəkildə vaksinasiyası yüksək səviyyədə təşkil olunaraq qısa müddətdə uğurla başa çatdırılıb.

Xidmətin infrastrukturunun yenilənməsi, peşəkar kadr korpusunun formalaşdırılması, istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin açılması istiqamətində xeyli işlər görülüb, penitensiar müəssisələrdə əsaslı təmir və quruculuq işləri davam etdirilib.

Penitensiar xidmətin rəis müavini Oqtay Məmmədov məruzə ilə çıxış edərək bildirib ki, penitensiar sistemin inkişafı, həbs edilmiş şəxslərin, məhkumların hüquqlarının etibarlı qorunması diqqətdə saxlanılıb.

Koronavirus infeksiyasının qarşısının alınması üzrə davamlı profilaktik tədbirlər həyata keçirilərək pandemiya dövründə məhbuslar arasında cəmi 561 yoluxma halının qeydə alındığı, bunun da müəssisələrdə saxlanılan şəxslərin sayına nisbətdə 1,4% təşkil etdiyi bildirilib. Bu sahədə Penitensiar xidmətin təcrübəsi ölkəmizdə səfərdə olmuş İşgəncələrə qarşı Avropa Komitəsinin nümayəndələri, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofisinin əməkdaşları, habelə digər beynəlxalq təşkilatlar tərə-

findən yüksək qiymətləndirilib.

Diqqətə çatdırılıb ki, dövlət başçısının humanist siyasətinin davamı olan 18 mart 2021-ci il tarixli, 625 məhkuma şamil olunan Əfv Sərəncamı Ombudsmanın, millət vəkillərinin, İctimai Komitənin üzvlərinin və media nümayəndələrinin iştirakı ilə yüksək səviyyədə icra edilib.

Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası çərçivəsində infrastrukturun yenilənməsi, penitensiar müəssisələrdə təmir-abadlıq işləri davam etdirilib, enerji təchizatı və yanğın təhlükəsizliyi sahəsində işlər görülüb.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqi davamlı xarakter alaraq, virtual qaydada keçirilən iclaslarda Xüsusi Komissiya tərəfindən məhkəməyə göndərilməsi tövsiyə edilmiş 900-ə yaxın müraciət təmin edilib.

Məhkumların islah prosesində iştirak etmək, habelə müstəqil monitorinqlər aparmaq məqsədilə beynəlxalq, yerli qeyri-hökumət, o cümlədən hüquq-müdafiə təşkilatları tərəfindən ümumilikdə 230-dan çox başçəkmələr edilib və onların tövsiyələri ilə bağlı zəruri tədbirlər həyata keçirilib.

Məlumat verilib ki, cəzaçəkmə müəssisələrində və istintaq təcridxanalarında qeydə alınmış 43 cinayət hadisələrindən 30-u görüşə gəlmiş, sovqat gətirmiş vətəndaşlar və digər şəxslər tərəfindən törədilib. Keçirilən tədbirlər nəticəsində 36 fakt üzrə narkotik vasitələrin və 8 ədəd mobil telefonun gizli yolla penitensiar müəssisələrə keçirilməsinin qarşısı alınıb.

Cinayətkarlıqla mübarizədə digər hüquq-mühafizə orqanları ilə səmərəli qarşılıqlı fəaliyyət davam etdirilib. Daxili işlər orqanları ilə keçirilən birgə tədbirlər nəticəsində ölkənin müxtəlif bölgələrində 32 kiloqramdan artıq narkotik vasitələr aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb. 461 cinayətin açılmasına köməklik göstərilib.

Həmçinin, tərbiyə işinə, xüsusilə məhkumlarla keçirilən sosial yönümlü tədbirlərə, onların islah prosesinə diqqətin artırılması, habelə fərdi-tərbiyəvi işin daha səmərəli təşkili nəticəsində məhkum və həbs edilmiş şəxslər tərəfindən cəzanın icrası qaydalarının pozulması halları azalıb.

Penitensiar müəssisələrin etibarlı mühafizəsi, o cümlədən məhkum və həbs edilmiş şəxslərin təhlükəsiz şəraitdə daşınması yüksək səviyyədə təmin olunub.

Müşavirədə şəxsi heyət arasında nizam-intizamın gücləndirilməsi, əməkdaşların məsuliyyət hissinin yüksəldilməsi və etik davranış qaydalarına ciddi riayət olunması üzrə zəruri tədbirlərin görüldüyü, xidməti fəaliyyətlərində nöqsanlara, habelə etik davranış qaydalarının pozulması hallarına yol vermiş 87 nəfər əməkdaşın intizam məsuliyyətinə cəlb olunduğu bildirilib.

Vətəndaşların müraciətlərinə həssas və qayğı ilə yanaşılması, şəhid ailələrinin, qazilərin və Vətən müharibəsi iştirakçılarının qəbulu daim diqqətdə saxlanılıb, xidmətə qulluğa qəbulla bağlı müraciət etmiş 9 nəfər Vətən müharibəsi iştirakçısı kiçik rəis heyəti qismində işə qəbul edilib.

Bununla yanaşı, penitensiar müəssisələrdə ictimai faydalı əməyə cəlb olunmuş məhkumların sayının artdığı, iş adamlarının və sahibkarların penitensiar müəssisələrdə istehsalat sahələrinin yaradılmasına, yeni iş yerlərinin açılmasına cəlb edilməsi istiqamətində tədbirlərin davam etdirildiyi qeyd olunub, "Həbsxana incəsənəti" adlı internet satış məntəqəsi vasitəsilə cari ildə penitensiar müəssisələrdə istehsal olunan 13 min manata yaxın müxtəlif çeşidli məhsulların satıldığı bildirilib.

Müşavirədə ölkədə aparılan hüquqi islahatlar çərçivəsində Penitensiar xidmətin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlərin davam etdirildiyi qeyd olunub, xidmətin cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

# Cinayət işləri üzrə əməkdaşlığa dair beynəlxalq konfrans keçirilib




**İyulun 23-də Avropa Şurasının 2020-2023-cü illər üzrə Mərkəzi Asiyada Qanunun Aliliyi Proqramı əsasında həyata keçirilən "Mərkəzi Asiyada İqtisadi Cinayətkarlığa qarşı Şəffaflığın və Fəaliyyətin Təşviqi" layihəsi çərçivəsində "Cinayət işlərində qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasına həsr olunan beynəlxalq konfrans keçirilib.**

Konvensiya üçüncü dövlətlər üçün açıq olduğundan Özbəkistanın bu sənədə qoşulmaq istəyi nəzərə alınaraq keçirilən tədbir Avropa Konvensiyasının mahiyyəti, əhəmiyyəti və implementasiyası prosedurları barədə həmin ölkənin aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq məqsədi daşıyır.

Özbəkistandan 90-dan çox nümayəndənin, o cümlədən Ali Məhkəmənin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Daşkənd Hüquq Universitetinin məsul rəhbər şəxslərinin qatıldığı konfransda Avropa Şurasının ekspertləri tərəfindən çıxışlar edilib.

Tədbirdə Cinayət məsələlərində əməkdaşlığa dair Avropa Konvensiyalarının icrası üzrə Ekspertlər Komitəsinin üzvü olan Azərbaycan Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Əbilov məruzəçi qismində videoformatda iştirak edib.

Ölkəmizin nümayəndəsi çıxış edərək qeyd olunan Avropa Konvensiyasının implementasiyası və bununla bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri, müvafiq sorğuların göndərilməsi qaydası, bu sahədə praktiki problemlər və yeni tendensiyalar barədə məlumat verib.

Eyni zamanda beynəlxalq təcrübəyə, Avropa Məhkəməsinin qərarlarına istinad olunaraq vurğulanıb ki, cinayət işləri üzrə beynəlxalq hüquqi yardımın videokonfrans vasitəsilə göstərilməsi məhkumların daşınması zəruriliyinin aradan qaldırılmasına və onların, həmçinin həssas qrupların təhlükəsizliyinin təmin olunmasına, maliyyə vəsaitinin qənaət edilməsinə və vaxt itkisinin azaldılmasına, məhkəmə proseslərinin, dindirmələrin daha səmərəli və dolğun aparılmasına xidmət edir.

Tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən qanunvericiliyin təkmilləşdirilərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə cinayət işlərində videokonfransın keçirilməsi imkanının yaradılması barədə danışılıb.

Sonra konfrans iştirakçılarını maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb, Azərbaycanın bu sahədə təcrübəsinə böyük maraq göstərilib.

# Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı

**Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyası bildirir ki, nazirliyin kadr korpusunun yeni nəsil mütəxəssislərlə möhkəmləndirilməsi, onların layiqli ədliyyə işçisi kimi formalaşması, bilik, bacarıq və potensialından səmərəli istifadə edilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülür.**

Dövlət gənclər siyasətinə uyğun olaraq ədliyyə orqanlarına gənc hüquqşünasların qulluğa qəbulu ilə bağlı aşkarlıq şəraitində, vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə mütəmadi müsabiqələr keçirilir.

Bu tədbirlər çərçivəsində bölgələrdə yerləşən nazirliyin icra və probasiya, həmçinin qeydiyyat qurumlarında mövcud (Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla) vakant ştat vahidlərinin hazırlıqlı hüquqşünaslarla komplektləşdirilməsi məqsədilə elan edilmiş növbəti müsabiqə üzrə test imtahanından uğur qazanmış 80 namizədlə ikinci mərhələdə aşkarlıq şəraitində fərdi qaydada söhbət aparılmışdır.

Qeyri-hökumət təşkilatlarının nümayəndələrinin də iştirak etdiyi bu mərhələdə 52 nəfər zəruri keçid balı toplamış və Müsabiqə Komissiyası tərəfindən onların iyul ayının 14-dən etibarən Ədliyyə Akademiyasında xüsusi proqram əsasında icbari təlimə cəlb olunmaları barədə qərar qəbul edilmişdir.

Bu təlimin yekunları üzrə imtahandan müvəffəqiyyətlə keçən hüquqşünaslara peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə verilməklə onlar ədliyyə orqanlarına qulluğa qəbul olunacaqlar.

İcbari təlimdə iştirakla bağlı namizədlər Ədliyyə Akademiyası ilə əlaqə saxlamalıdırlar (Bakı şəhəri, Vidadi küçəsi 158, telefon: 493-71-31).

Aidiyyəti məsələlərlə əlaqədar Nazirliyə müraciət edilə bilər (Bakı şəhəri, İnşaatçılar prospekti 1, telefon: 538-01-62, 538-08-85, elektron poçt: contact@justice.gov.az).

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**Ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqları üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin tam şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi davam edir.**

Müsabiqənin bütün mərhələlərində uğur qazanmış 44 nəfər hakimliyə namizəd cari ilin fevral ayında dövlət başçısının Sərəncamı ilə müxtəlif hakim vəzifələrinə təyin ediliblər.

Eyni zamanda test, habelə yazılı və şifahi imtahanları müvəffəqiyyətlə vermiş daha 41 namizəd hakim vəzifəsinə hazırlanmaları üçün tədris kurslarına cəlb olunublar.

Hakimlərin Seçki Komitəsi bildirir ki, müsabiqə davamlı xarakter alıb və mətbuatda xəbər verildiyi kimi növbəti test imtahanında müvəffəqiyyət qazanmış 156 nəfər hakimliyə namizədlə yazılı imtahan keçirilib. Namizədlər tərəfindən cinayət və mülki sahələr üzrə 2 kazus xarakterli sual 4 saat ərzində cavablandırılıb.

Onların cavab vərəqələri kodlaşdırılaraq anonim qaydada, ikiqat üsulla Hakimlərin Seçki Komitəsinin üzvləri və dəvət edilmiş mütəxəssislər tərəfindən ayrı-ayrılıqda yoxlanılıb. Bu zaman qanunun məzmununu açmaq və izahını vermək, kazusları həll etməklə qoyulmuş məsələlərə düzgün qiymət vermək bacarıqlarına xüsusi diqqət yetirilib.

İmtahanın nəticəsinə görə hər bir sahə üzrə 60 və daha çox bal toplamış 84 nəfər namizəd müsabiqənin növbəti mərhələsinə - şifahi imtahana buraxılıb.

Həmçinin bildirilir ki, hakimliyə namizədlərin sənədlərinin qəbulu davam edir və artıq 100-dən çox hüquqşünas sənədlərini təqdim edib. Hakimlərin Seçki Komitəsi hüquqşünasları müsabiqədə iştiraka dəvət edir.

# Narkomaniya ilə mübarizə tədbirlərinə dair ictimai müzakirə

**İyulun 26-da Ədliyyə Nazirliyi tərəfindən "Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə aparılan mübarizə tədbirləri" mövzusunda onlayn ictimai müzakirə təşkil olunub.**

Nazirliyin feysbukdakı səhifəsində canlı yayımlanan tədbirdə Məhkəmə Ekspertizası Mərkəzinin fiziki-kimyəvi ekspertizalar şöbəsinin rəisi Elvin Aslanov, bioloji ekspertizalar şöbəsinin rəisi Səbinə Qədirova, psixoloji ekspertiza şöbəsinin eksperti Nilufər İsmayılova və Tibb baş idarəsinin inspektoru - narkologiya üzrə həkim Fərman Fərmanov iştirak ediblər.

Tədbirdə son dövrlər ölkə gündəminin əsas müzakirə mövzusuna çevrilən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə aparılan mübarizə tədbirlərindən danışılıb. Bildirilib ki, narkomanlıq cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, eyni zamanda, insanların həyat və sağlamlığına böyük təhlükə törədən, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir. Ölkəmizdə bu sosial bəlaya qarşı ciddi mübarizə aparılır. Xüsusilə son dövrlər narkotik tərkibli dərman istifadəçilərinin sayının artması mübarizə tədbirlərinin daha da gücləndirilməsini zəruri edir.

Çıxış edənlər narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunvericilik bazasından, Məhkəmə Ekspertizası Mərkəzində aparılan narkotik vasitələrin, psixotrop maddələrin ekspertizasından danışıblar. Qeyd edilib ki, mərkəzdə olan müasir avadanlıqlar narkotik maddələrin ekspertizasının yüksək səviyyədə aparılmasına imkan verir. Məhkəmə-bioloji ekspertizası, bitki mənşəli maddələrin tədqiqi, narkotik təbiətli bitkilərin və onlardan hazırlanmış narkotik vasitələrin tədqiqat metodu, təbii narkotik vasitələrin rəng testləri, nazik təbəqəli xromatoqrafiya ilə ekspertizaları aparılır.

Müzakirələr zamanı yeni narkotik vasitələr, psixotrop maddələrin zərərləri barədə məlumat verilib. Vurğulanıb ki, son zamanlar "patı" adlanan narkotik vasitədən istifadə halları artır. Təəssüf ki, bu vasitədən istifadə qadınlar və uşaqlar arasında da geniş yayılıb.

Tədbirdə xüsusilə narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə aparılan mübarizədə maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunulub.

Onlayn ictimai müzakirədə, həmçinin sosial şəbəkə istifadəçilərini maraqlandıran suallar cavablandırılıb.

# Probasiya nəzarətində olan məhkumların narkotik vasitələrin istifadəsindən çəkindirilməsinə xüsusi diqqət yetirilir

**Prezident İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmış Ədliyyə Nazirliyinin Probasiya Xidməti tərəfindən azadlığın məhdudlaşdırılması və digər alternativ cəzaların icrasına effektiv nəzarətin həyata keçirilməsi təmin olunur, bu zaman müasir İKT-dən istifadə etməklə elektron nəzarət vasitələrinin tətbiqi genişləndirilir.**

Üzərində həmin vasitələr tətbiq edilmiş məhkumların fasiləsiz izlənilməsi məqsədilə Probasiya Xidmətində Elektron Monitorinq Mərkəzi fəaliyyət göstərir.

Ötən dövrdə azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş, habelə şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 8.700-dən çox şəx-

sə elektron qolbaq tətbiq edilib. Hazırda isə 4.000-dən çox məhkum elektron qolbaq daşıyır.

Bundan əlavə, qanunvericiliyə dəyişikliklər edilərək ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası prosesində elektron nəzarət vasitələrinin tətbiqi imkanları yaradılıb. Belə ki, bu sahədə innovasiyaların tətbiqi ictimai işlər təyin edilmiş şəxslərin iş saatlarının elektron qaydada hesablanmasını, həmin işlərin görüldüyü yerlərə vaxtında gəlib-getmələrinə səmərəli nəzarətin həyata keçirilməsini təmin etməklə, bu prosesdə həmçinin sui-istifadə hallarının qarşısının alınmasına xidmət edir. Hazırda ictimai işlər növündə cəza çəkən 90-dək şəxsə elektron qaydada nəzarət həyata keçirilir.

Probasiya Xidməti tərəfindən probasiya qeydiyyatında olan məhkumların islahına, onların cəmiyyətə reinteqrasiyasına da xüsusi diqqət yetirilir. Həmin şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısının alınması, onların, xüsusilə yetkinlik yaşına çatmayan məhkumların narkotik vasitələrin istifadəsindən çəkindirilməsi ilə bağlı mühüm tərbiyəvi əhəmiyyət kəsb edən, maarifləndirici tədbirlər həyata keçirilir.

Narkomanlığın ailədə və cəmiyyətdə doğurduğu arzuolunmaz nəticələri ilə bağlı mütəxəssislər cəlb olunmaqla məhkumlar arasında təbliğat işi aparılır. Bu məqsədlə Bakı Şəhər Probasiya İdarəsinin qeydiyyatında olan yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakı şəhər Narkoloji Mərkəzinin həkim-narkoloqu dəvət edilməklə maarifləndirici görüş keçirilərək məhkumlara narkotik vasitələrin qanunsuz dövriyyəsinin yaratdığı ciddi fəsadlar, narkomanlığın insan saglamlığına, xüsusilə gənc nəslin gələcəyinə vurduğu ziyan barədə ətraflı məlumat verilib, film nümayiş etdirilib.

# Ədliyyə fəaliyyətinə dair onlayn brifinq keçirilib

## "Məhkəmə ekspertizası fəaliyyətində yeni tendensiyalar" mövzusunda

**İyulun 7-də Ədliyyə Nazirliyi tərəfindən "Məhkəmə ekspertizası fəaliyyətində yeni tendensiyalar" mövzusunda onlayn brifinq təşkil olunub.**



Brifinqdə iştirak edən Məhkəmə Ekspertizası Mərkəzinin Elmi-tədqiqat və metodiki iş şöbəsinin rəisi Hümmət Vəliyev, həmçinin Ballistik və trasoloji ekspertizalar şöbəsinin eksperti Aysel Kişiyeva məhkəmə ekspertizasının tarixi, fəaliyyəti, bu sahədə yeni tendensiyalar barədə ətraflı məlumat veriblər.

Eyni zamanda, Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələr və yeniliklər barədə danışıblar.

Qeyd edilib ki, Fərmandan irəli gələrək bu sahədə xeyli işlər görülüb, ekspertiza müddətləri dəqiqləşdirilib, məhkəmə ekspertizasının keçirilməsi ilə bağlı müraciət edən şəxslərin dairəsi genişləndirilib. Özəl məhkəmə ekspertizası institutunun tətbiqi ilə bağlı yeni normalar müəyyənləşdirilib. Məhkəmə ekspertizası fəaliyyətində yeni tendensiyalar Fərmanda göstərilən tapşırıqların bilavasitə icrasından irəli gəlir.

Bildirilib ki, Məhkəmə

Ekspertizası Mərkəzi Ədliyyə Nazirliyinin ekspertiza və elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan baş idarəsidir. Mərkəzin fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, qanunçuluğun təmin edilməsi, ekspertlərin müstəqilliyi, elm və texnikanın müasir nailiyyətlərindən istifadə edilməklə həyata keçirilən tədqiqatların obyektivliyi, hərtərəfliyi və tamlığı prinsiplərinə əsaslanır.

Mərkəzin əsas fəaliyyət istiqamətləri məhkəmə ekspertizalarını keçirmək və tədqiqatlar aparmaqdır. Bundan başqa, elmi-tədqiqat işləri aparmaq, ekspert tədqiqatının yeni metod və metodikalarını hazırlamaq və təkmilləşdirməkdir. Həmçinin məhkəmə və hüquq mühafizə orqanlarına elmi-metodik kömək göstərmək, ekspert profilaktikasını həyata keçirmək və qanunvericiliklə müəyyənləşdirilmiş digər istiqamətlərdə fəaliyyət göstərməkdir.

Ekspertiza xidmətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə ədliyyə nazirinin "Məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər barədə" 2012-ci il 22 avqust tarixli əmri ilə Məhkəmə Ekspertizası Mərkəzinin regional bölmələri yaradılıb. Hazırda ekspertizalar Məhkəmə Ekspertizası Mərkəzinin Bakıda yerləşən inzibatı binasında, eləcə də Gəncə, Şəki, Şirvan və Lənkəran bölmələrində aparılır. Mərkəzdə 20 məhkəmə ekspertizası növü və 41 ekspert ixtisası üzrə tədqiqatlar aparılaraq rəy və arayışlar verilir.

Mərkəz məhkəmə ekspertizası sahəsində yeni informasiya və kommunikasiya texnologiyalarını tətbiq edir.

Diqqətə çatdırılıb ki, Ballistik və trasoloji ekspertizalar şöbəsi məhkəmə ekspert ixtisasının verildiyi məhkəmə ekspertizası növü üzrə tədqiqatlar apararaq qanunvericiliklə nəzərdə tutulmuş vəzifələri yerinə yetirir. Şöbə məhkəmə ekspertizası və kriminalistika sahələrində elmi tədqiqat işlərini aparır və alınmış nəticələri ekspert təcrübəsində tətbiq edir. Cinayətlərin baş verməsinə kömək etmiş səbəb və şəraitin aşkar edilib onların aradan qaldırılması sahəsində ekspert profilaktikasını həyata keçirir. Ekspertizanın təyini və tədqiqat obyektlərinin göndərilməsinə dair məhkəmə və hüquq-mühafizə orqanlarına metodiki kömək göstərir. Ekspert təcrübəsinin təhlili əsasında ümumiləşdirmələr aparır, metodik və profilaktik tövsiyələr hazırlayır. Məhkəmə ekspert kadrlarının peşə hazırlığının yüksəldilməsi məqsədilə qanunvericiliyi, məhkəmə ekspertizası və kriminalistikanın yeni nailiyyətlərini daim öyrənir.

Tədbirdə Azərbaycanda özəl məhkəmə ekspertizası institutunun tətbiqi məsələsinə toxunulub.

Onlayn tədbirdə sosial şəbəkə istifadəçilərini maraqlandıran suallar da cavablandırılıb.

## "Notariatın rəqəmsal imkanları" mövzusunda

**İyulun 16-da Ədliyyə Nazirliyinin feysbukdakı səhifəsində "Notariatın rəqəmsal imkanları" mövzusunda onlayn brifinq təşkil olunub.**

Brifinqdə iştirak edən Azərbaycan Notariat Palatasının İdarə Heyətinin sədri Hüseyn Məmmədov, Bakı şəhəri 34 saylı notariat ofisinin notariusu Sübhi Bektaşi notariatın fəaliyyəti, bu sahədə həyata keçirilən yeniliklər, görülən işlər barədə ətraflı məlumat veriblər.

Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, elektron ədliyyə xidmətlərinin sayının artırılması, bu xidmətlərdə innovativ metodların və onların mobil versiyalarının tətbiqi üzrə ardıcıl tədbirlər həyata keçirilir. Ədliyyə Nazirliyi tərəfindən 2019-cu ildə istifadəyə verilmiş "Mobil notariat" tətbiqi vasitəsilə müxtəlif notariat hərəkətlərinin mobil cihazlar vasitəsilə elektron qaydada rəsmiləşdirilməsi təmin edilir.

Vurğulanıb ki, hazırda 120 minə yaxın istifadəçisi olan "Mobil notariat"ın funksionallığının artırılması üzrə işlər davam etdirilərək, mobil telefon vasitəsilə müxtəlif qurumlarda, o cümlədən dövlət orqanları, idarə, təşkilat və müəssisələrdə, hüquqi şəxslərdə, kommunal xidmət göstərən qurumlarda, mobil operatorlarda təmsilçiliyə dair etibarnamələrin verilməsi imkanı yaradılıb.

Bundan əlavə, vərəsəlik hüququnun rəsmiləşdirilməsi üçün digər şəxslərə bununla bağlı işlərin aparılması səlahiyyətini verən etibarnamələr də əlavə edilib.

Bildirilib ki, "Mobil notariat" tətbiqi üzərindən daşınmaz əmlaka sərəncam verilməsinə dair ərin, yaxud arvadın, həmin ünvanda qeydiyyatda olan şəxslərin razılıq ərizələrinin elektron qaydada rəsmiləşdirilməsi mümkündür.

"Mobil notariat"dan istifadənin daha rahat həyata keçirilməsi üçün qeydiyyat proseduru sadələşdirilib. Artıq Azərbaycan Respublikasının vətəndaşları olduqları yerdən asılı olmayaraq videoyazı vasitəsilə müraciət edərək qeydiyyatdan keçə bilərlər.

Yeni xidmətlərdən faydalanmaq üçün "AppStore" və "PlayStore" elektron platformalarından ödənişsiz olan "Mobil notariat" tətbiqini yükləməklə, mövcud istifadəçilər isə proqramı yeniləməklə yararlana bilərlər. Növbəti aylarda yeni xidmətlərin istifadəyə verilməsi nəzərdə tutulur.

Tədbirdə notariatın rəqəmsal imkanlarının digər istiqamətlərinə, eləcə də "Elektron ədliyyə" köşkləri, mobil səyyar xidmət çantalardan istifadə məsələlərinə də toxunulub.

Xüsusi vurğulanıb ki, ötən dövrdə xüsusi notariat institutu geniş tətbiq olunub. Notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sistemi istifadəyə verilməklə notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib. Sənədlərin notarial təsdiqi vətəndaşların ən çox istifadə etdiyi xidmətlərdən biridir. Notariatın rəqəmsal imkanları bütün notariat hərəkətlərini elektron qaydada rəsmiləşdirməyə imkan yaradır.

Onlayn tədbirdə, həmçinin notariat sahəsində yeni texnologiyaların tətbiqi və sair məsələlərlə bağlı sosial şəbəkə istifadəçilərini maraqlandıran suallar cavablandırılıb.

# Bələdiyyələrin dayanıqlı inkişafı üzrə tədbirlər davam etdirilir

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yerli özünüidarəetmə orqanlarının - bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür, o cümlədən onların səlahiyyətləri genişləndirilir, maliyyə vəziyyəti yaxşılaşdırılır.**

Həmçinin bələdiyyələr tərəfindən qanunçuluğa əməl olunması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən onların fəaliyyətinə səmərəli inzibati nəzarət həyata keçirilir, aşkar olunan xarakterik pozuntuların, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üzrə zəruri tədbirlər, o cümlədən metodoloji kömək göstərilir.

Bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması üzrə görülən tədbirlər (icarə haqlarının bazar qiymətlərinə uyğunlaşdırılması, debitor və kreditor borcların həlli, pul tələblərinə dair icrası məcburi aktların qəbulu, bələdiyyə müəssisələrinin yaradılması, bələdiyyə əmlakından səmərəli istifadə edilməsi və s.) və bu sahədə aparılan metodoloji iş müsbət nəticə verməkdədir. Aparılan metodiki köməklik nəticəsində ilkin mərhələdə 702 icarə müqaviləsi üzrə bələdiyyələrə (Şirvan, Bərdə, Göyçay regional ədliyyə idarələrinin yurisdiksiyası) ödənilən icarə haqqının məbləği 2,5 dəfə artıb, habelə 350 min manata yaxın torpaq icarə haqqı borcunun yerli büdcələrə (Xaçmaz regional ədliyyə idarəsinin yurisdiksiyası) ödənilməsi təmin edilib.

Cari ildə yerli büdcə gəlirlərinin artırılması istiqamətində pilot bələdiyyələrin iş təcrübəsinin öyrənilməsi məqsədilə təbliğat işləri aparılır, çoxsaylı seminar-müşavirələr təşkil olunur.

İyulun 23-də bu sahədə görülmüş işlərin müsbət nəticələri ilə bağlı Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzi tərəfindən Bakı bələdiyyələri üçün keçirilmiş videoformatda müşavirədə bələdiyyələrə müxtəlif istiqamətlər üzrə qanunvericiliyin tələbləri izah edilib, bir sıra tövsiyələr verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Bildirilib ki, Bakı bələdiyyələri ilə aparılan mütəmadi profilaktik iş nəticəsində yerli vergi və ödəniş ödəyicilərinin uçotunun dəqiq aparılması, kənarda qalan vergi obyektlərinin vergiyə cəlb edilməsinə, pul tələblərinə dair inzibati aktların qəbul edilərək məcburi icraya yönəldilməsinə diqqət artırılıb.

Bu sahədə Nəsimi və Binəqədi bələdiyyələrinin müsbət iş təcrübəsi qeyd olunub.

Bakı şəhərində bələdiyyələr üzrə ümumilikdə uçota götürülən torpaq və əmlak vergisi obyektlərinin sayı 22% çoxalıb, həmin vergilərdən daxil olmalarda cari ildə 1,9 milyon manata yaxın artım müşahidə olunub. Həmçinin bələdiyyələr üzrə pul tələblərinə dair qəbul edilmiş inzibati aktların icrası təmin edilərək 170 min manata yaxın vəsait yerli büdcələrə ödənilib.

Hazırda pilot bələdiyyələrin müsbət iş təcrübəsinin ölkə üzrə bələdiyyələrdə tətbiq edilməsi istiqamətində işlər davam etdirilir.

Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən bu tədbirlər bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinə kömək və onlara metodoloji yardım məqsədi daşıyır və onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, bununla da qanunvericiliklə onlara verilmiş səlahiyyətlərinin icrasına, o cümlədən yerli əhəmiyyətli məsələlərin həllində daha operativ və səmərəli iştirakına, nəticədə yerli özünüidarəetmə orqanlarına ictimai etimadın güclənməsinə xidmət edir.

# "Kitab bizdən, oxumaq sizdən" devizi altında vətəndaş təşəbbüsü kampaniyası keçirilir

**Ədliyyə Nazirliyi tərəfindən məhkumların reinteqrasiyasında innovativ yanaşma tətbiq olunaraq həyata keçirilən tədbirlər cəmiyyətdə maraq doğurur.**




Azadlıqdan məhrum edilmiş şəxslərin islah prosesinin və asudə vaxtının səmərəli təşkili, ayrı-ayrı ixtisaslara, peşə sahələrinə olan marağı nəzərə alınaraq təlim-tədris proqramlarının keçirilməsi onların hüquqlarının etibarlı təminatına xidmət edir.

Kampaniyanın məqsədi penitensiar müəssisələrin kitabxana fondlarının müxtəlif bədii, publisistik və digər elmi kitablarla zənginləşdirilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin mütaliə marağının artırılmasıdır.

Nazirliyin bu sahədə vətəndaş cəmiyyəti institutları ilə sıx işgüzar fəaliyyəti, cəzaçəkmə müəssisələrində məhkumların islah prosesinə, çoxşaxəli, mühüm tərbiyəvi əhəmiyyət kəsb edən tədbirlərə ayrı-ayrı qeyri-hökumət təşkilatlarının yaxından cəlb olunması xüsusilə diqqətəlayiqdir.

"İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyi məhkumların bilik və dünyagörüşlərinin artırılması, asudə vaxtlarını daha səmərəli keçirmələri üçün Ədliyyə Nazirliyi ilə birgə "Nizami Gəncəvi İli" çərçivəsində "Kitab bizdən, oxumaq sizdən" devizi altında vətəndaş təşəbbüsü kampaniyasına start verir.

Kampaniyaya qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, habelə nəşriyyatlar, kitab mağazaları, şair, yazıçılar və digər vətəndaşlar qoşularaq oxuduqları kitabları cəzaçəkmə müəssisələrinin kitabxanalarına hədiyyə edə bilərlər.

Bununla əlaqədar kitabları "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin ofisinə (Ünvan: Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, Azərbaycan nəşriyyatı, 3-cü mərtəbə, 120-ci otaq), həmçinin +994 55 325-18-38 nömrəli telefonlarla əlaqə saxlamaqla təqdim etmək olar.

Kitabları gətirən şəxslərlə "Kitab bizdən, oxumaq sizdən" şüarı ilə hazırlanan xüsusi baner önündə fotolar çəkilərək sosial mediada paylaşılacaq.

## Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.1.Bakı iqtisadi rayonu (Bakı şəhəri);

1.2.Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

1.3.Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

1.4.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

1.5.Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

1.6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.7.Qazax-Tovuz iqtisadi ray-

onu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

1.8.Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

1.9.Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

1.10.Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

1.11.Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

1.12.Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

1.13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

1.14.Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

2.Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 iyul 2021-ci il*
*N 1386*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 1, maddə 1, N 3, maddə 131; 2002, N 12, maddə 693; 2003, N 1, maddə 16; 2004, N 1, maddə 10, N 4, maddə 199, N 5, maddə 321, N 8, maddə 597, N 11, maddə 884; 2005, N 6, maddələr 463, 475, N 10, maddə 874; 2006, N 5, maddə 386, N 6, maddə 479, N 8, maddə 657, N 11, maddə 927, N 12, maddələr 1005, 1014; 2007, N 2, maddə 83, N 5, maddələr 434, 436, N 7, maddə 711, N 10, maddə 934, N 11, maddələr 1049, 1074, 1078, N 12, maddələr 1213, 1219; 2008, N 3, maddə 153, N 5, maddələr 326, 341, N 6, maddələr 471, 481, N 7, maddə 602, N 8, maddə 699, N 10, maddə 881; 2009, N 2, maddə 54, N 5, maddə 311, N 6, maddə 403, N 10, maddə 771, N 11, maddə 878, N 12, maddə 964; 2010, N 4, maddə 276; 2011, N 2, maddə 71, N 3, maddə 165, N 6, maddə 463; 2012, N 5, maddə 413, N 10, maddə 945, N 11, maddə 1049; 2015, N 1, maddə 9, N 5, maddə 488, N 10, maddə 1100; 2016, N 8, maddə 1365, N 11, maddələr 1760, 1782, 1785; 2017, N 5, maddə 726, N 6, maddə 1054, N 7, maddə 1267, N 8, maddə 1513, N 11, maddə 1974, N 12 (I kitab), maddə 2192; 2018, N 2, maddələr 158, 159, N 3, maddə 392, N 5, maddələr 864, 880, N 6, maddə 1191, N 7 (I kitab), maddələr 1383, 1428; 2019, N 1, maddə 8; 2020, N 7, maddələr 828, 851, 856, N 11, maddə 1322, N 12 (I kitab), maddələr 1425, 1427;

2021, N 2, maddə 114) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şuranın fəaliyyətinin təşkilini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan Katiblik həyata keçirir.";

1.2. 22.7-ci maddə üzrə:

1.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Dövlət qulluqçusuna daimi dövlət qulluğuna qəbul edildiyi vaxtdan başlayaraq qulluq stajına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və məbləğdə aylıq əlavə haqq ödənilir.";

1.2.2. ikinci cümlə ləğv edilsin;

1.3. aşağıdakı məzmunda 22.7-1-ci və 22.7-2-ci maddələr əlavə edilsin:

"22.7-1. Dövlət qulluqçusunun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illəri onun dövlət qulluğu stajına və dövlət qulluğu stajı onun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilir.

22.7-2. Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınaraq, dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi qaydasını və şərtlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.";

1.4. 28-ci maddə üzrə:

1.4.1. 28.3-cü maddənin birinci cümləsində "sertifikat" sözü "Dövlət qulluğu sertifikatı" (bundan sonra - sertifikat)" sözləri ilə əvəz edilsin;

1.4.2. 28.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"28.5. Dövlət qulluğuna qəbul üçün test imtahanından keçdiyini təsdiq edən sertifikatı olan şəxs həmin sertifikatın qüvvədə olma müddətinin hər ili ərzində beş müsahibədə iştirak etmək üçün ödənişsiz müraciət edə bilər. Beşdən artıq müsahibədə iştirak ödənişlidir və müsahibədə iştirak etmək üçün ödənişin məbləğini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.4.3. aşağıdakı məzmunda 28.7-1-ci və 28.8-1-ci maddələr əlavə edilsin:

"28.7-1. Dövlət orqanının rəhbəri tərəfindən bu Qanunun 28.7-ci maddəsinə uyğun olaraq təqdim olunmuş namizədlər sırasından seçim edilərkən müsabiqədə daha yüksək nəticə əldə etmiş namizədlərə, müsabiqə nəticələri bərabər olduqda ali təhsil pilləsinin daha yüksək səviyyəsini bitirənlərə, təhsil səviyyəsi eyni olduqda isə təhsil müəssisəsini fərqlənmə ilə bitirənlərə və xarici dil bilənlərə üstünlük verilir.";

"28.8-1. Bu Qanunun 28.7-ci maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) inzibati vəzifələrin beşinci - yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə müsahibə əsasında ilk dəfə dövlət qulluğuna qəbul edilən şəxslərə də şamil edilir.";

1.4.4. 28.11-ci maddənin birinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu müddət ərzində həmin dövlət orqanında analoji vakant vəzifə olduqda, namizədlərin razılığı ilə onlar həmin vəzifələrə təyin edilirlər, yaxud digər dövlət orqanında analoji vakant vəzifə olduqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin vəzifəyə təyin edilmə məsələlərinə baxılması üçün namizədlər bu dövlət orqanının rəhbərinə təqdim olunurlar.";

1.4.5. 28.12-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"1-3-cü kateqoriya dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı, habelə Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstə-

rən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələri istisna olmaqla) inzibati vəzifələrin birinci - üçüncü təsnifatlarına uyğun olan vəzifələrə, habelə 2-ci kateqoriya dövlət orqanlarına aid müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələrə (bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) qəbul bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq daxili müsahibə əsasında həyata keçirilir.

Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər, dövlət orqanlarında (qurumlarında) siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən vəzifələrdə azı 10 il iş stajı olan şəxslər inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul olunarkən müsabiqənin yalnız müsahibə mərhələsində iştirak edirlər.";

1.5. 28-1-ci maddə üzrə:

1.5.1. 28-1.1-ci maddəyə "son ilində" sözlərindən sonra ", lakin həmin sertifikatın qüvvədə olma müddətinin bitmə tarixindən gec olmayaraq" sözləri əlavə edilsin;

1.5.2. 28-1.2-ci maddədə "ömürlük" sözü "müddətsiz" sözü ilə əvəz edilsin;

1.5.3. 28-1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"28-1.3. Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə keçirilən test imtahanının məzmunu Şuranın təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.6. 29.2-ci maddə üzrə:

1.6.1. birinci hissənin birinci və ikinci cümlələrində "Birinci - beşinci" sözləri "1-5-ci" sözləri ilə əvəz edilsin;

1.6.2. ikinci hissəyə "Dövlət qulluqçusu" sözlərindən sonra "(iki il müddətində bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.6.3. üçüncü hissəyə "Dövlət qulluqçusu" sözlərindən sonra "(bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.7. 29.3-cü maddə üzrə:

1.7.1. birinci hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"1-5-ci kateqoriya dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatlarına (2-ci kateqoriya dövlət orqanlarına aid müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələr (bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) istisna olmaqla) uyğun olan vəzifələrin həmin dövlət orqanında və ya digər dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları, habelə azı 5 il qulluq stajı olan və dövlət orqanında inzibati vəzifələrdə çalışmış, eləcə də bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və xüsusi (hərbi, diplomatik) rütbəsi olan, habelə həmin orqanlarda azı 5 il qulluq (xidmət) stajı olan və xüsusi (hərbi, diplomatik) rütbə nəzərdə tutulan vəzifələrdə çalışmış şəxslər tərəfindən tutulması ümumi müsahibə yolu ilə həyata keçirilir.";

1.7.2. birinci hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər, dövlət orqanlarında (qurumlarında) siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən vəzifələrdə azı 10 il iş stajı olan şəxslər inzibati vəzifələrin tutulması üçün keçirilən ümumi müsahibədə iştirak edə bilərlər.";

1.7.3. ikinci hissənin birinci cümləsində "Birinci - beşinci" sözləri "1-5-ci" sözləri ilə, "birinci - yeddinci təsnifatlarına uyğun olan vəzifələrin" sözləri "dördüncü - yeddinci (2-ci kateqoriya dövlət orqanlarına aid müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin

dördüncü təsnifatına uyğun olan vəzifələr (bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) istisna olmaqla) təsnifatlarına uyğun olan vəzifələrin" sözləri ilə, "müsahibə (daxili müsahibə)" sözləri "daxili müsahibə" sözləri ilə əvəz edilsin və həmin cümləyə "dövlət qulluqçularının" sözlərindən sonra ", habelə bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrə iddia edən şəxslərin" sözləri əlavə edilsin;

1.7.4. üçüncü hissədə "müsahibə (ümumi müsahibə)" sözləri "ümumi müsahibə" sözləri ilə əvəz edilsin və həmin hissəyə "müsabiqə" sözündən sonra "(bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələr istisna olmaqla)" sözləri əlavə edilsin;

1.7.5. aşağıdakı məzmunda beşinci və altıncı hissələr əlavə edilsin:

"1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci - yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması məqsədilə keçirilən müsahibədən müvəffəqiyyətlə keçmiş, lakin vakant vəzifəyə təyin edilməmiş namizədlər iki il müddətində həmin dövlət orqanında ehtiyat kadr kimi saxlanılır. Həmin namizədlərin vakant inzibati vəzifələrə təyin olunması və ehtiyat kadrlar siyahısından çıxarılması ilə bağlı məsələlər bu Qanunun 28.11-ci maddəsinə uyğun olaraq tənzimlənir.

Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar ehtiyat kadrlar siyahısına daxil edilən şəxs bu Qanunun 29.2-ci maddəsinin birinci hissəsinə uyğun olaraq keçirilən ümumi müsahibədə və ehtiyat kadr kimi saxlanıldığı dövlət orqanında bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq keçirilən daxili müsahibədə iştirak edə bilər.";

1.8. 29.4-cü maddənin ikinci hissəsinə "olunur" sözündən sonra ", dövlət orqanının və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun rəsmi internet saytlarında yerləşdirilir" sözləri əlavə edilsin;

1.9. 29.5-ci maddə üzrə:

1.9.1. ikinci hissədə "bir il" sözləri "altı ay" sözləri ilə əvəz edilsin;

1.9.2. üçüncü hissəyə "birinci hissəsi" sözlərindən sonra "bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulmasına, habelə" sözləri əlavə edilsin;

1.10. 29.7-ci maddəyə "komissiya" sözündən sonra "bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulması ilə bağlı müsahibə zamanı yalnız həmin dövlət orqanının nümayəndələri daxil edilməklə, digər hallarda isə" sözləri əlavə edilsin;

1.11. 29.11-ci maddəyə "inzibati vəzifə" sözlərindən sonra "(bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələr istisna olmaqla)" sözləri əlavə edilsin;

1.12. 29-1-ci maddəyə "yaratdığı quruma" sözlərindən sonra ", Şuraya" sözü əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

2.1. 2021-ci il iyulun 1-dək "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qulluğuna qəbul olunmuş, on il və daha çox qulluq stajı olan dövlət qulluqçuları, habelə əvvəllər azı on il dövlət qulluğunda çalışmış və yenidən dövlət qulluğuna qəbul olunan şəxslər müddətsiz "Dövlət qulluğu sertifikatı" almış dövlət qulluqçularına bərabər tutulurlar.

2.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28-1-ci maddəsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanunu qüvvəyə mindiyi günədək "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qulluğuna qəbul olunmuş dövlət qulluqçularına (bu Qanunun 2.1-ci maddəsi nəzərə alınmaqla) onlar daha yüksək inzibati vəzifənin tutulması üçün müraciət etdiyi halda tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
*Bakı şəhəri, 31 may 2021-ci il*
*N 340-VIQD*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci, 6-cı, 13-cü, 14-cü, 15-ci, 16-cı və 17-ci bəndlərini rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048, N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13, N 6, maddə 1155, N 7 (I kitab), maddələr 1380, 1408, N 12 (I kitab), maddə 2532; 2019, N 1, maddə 35, N 4, maddə 570, N 5, maddələr 796, 804, N 7, maddə 1182, N 8, maddə 1380; 2020, N 1, maddə 1, N 5, maddə 522, N 7, maddə 832, N 11, maddələr 1322, 1332, 1335, N 12 (I kitab), maddə 1424; 2021, N 1, maddə 2; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 286-VIQD nömrəli, 23 aprel tarixli 298-VIQD və 301-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 294-cü maddəyə aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə uyğun olaraq fərdi əmək mübahisələri mediasiya vasitəsilə həll oluna bilər. Fərdi əmək mübahisələri ilə bağlı məhkəməyə

müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.";

1.2. 296-cı maddəyə "Qeyd" hissəsindən əvvəl aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması məsələsi "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672, N 11, maddələr 2209, 2225, N 12 (I kitab), maddələr 2524, 2534; 2019, N 1, maddə 23, N 5, maddələr 792, 812, N 7, maddə 1197, N 12, maddələr 1897, 1907; 2020, N 7, maddə 832, N 11, maddə 1333; 2021, N 4, maddə 309) aşağıdakı dəyişikliklər edilsin:

2.1. Aşağıdakı məzmunda 4.5-ci, 4.6-cı, 14.3-1-ci, 71.3-1-ci, 149.2.4-1-ci, 152.1.6-1-ci, 167.1.5-1-ci və 256.0.6-cı maddələr əlavə edilsin:

"4.5. Tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə şərt (mediasiyaya dair qeyd-şərt) olduğu halda, həmin qaydaya riayət edildikdən sonra mübahisə məhkəmənin həllinə verilə bilər.

4.6. Kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.";

"14.3-1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər.";

"71.3-1. Mediator mediasiya predmeti olan mübahisə üzrə məhkəmə prosesində tərəflərdən hər hansı birini təmsil edə bilməz.";

"149.2.4-1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsinə dair məlumat;";

"152.1.6-1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd təqdim edilmədikdə;";

"167.1.5-1. tərəflərə mübahisənin mediasiya vasitəsilə ilə həllinə dair təklif verir;";

"256.0.6. bu Məcəllənin 254.1.7-ci maddəsində nəzərdə tutulan halda barışıq sazişi və ya mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək.";

2.2. 19.2.3-cü, 104.4.5-ci, 150.0.7-ci, 254.1.6-cı, 259.0.12-ci və 305.1.16-cı maddələrin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və müvafiq olaraq aşağıdakı məzmunda 19.2.4-cü, 104.4.6-cı, 150.0.8-ci, 254.1.7-ci, 259.0.13-cü və 305.1.17-ci maddələr əlavə edilsin:

"19.2.4. o, məhkəmədə baxılan mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə.";

"104.4.6. mediasiya zamanı

məlum olan məlumatlar barədə - "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər.";

"150.0.8. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd.";

"254.1.7. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlandıqda.";

"259.0.13. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 21.9-cu maddəsində göstərilən hallarda.";

"305.1.17. mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi haqqında.";

2.3. 52-ci maddə üzrə:

2.3.1. 52.3-cü maddəyə "işini" sözündən sonra "bilavasitə özləri, yaxud mediasiya vasitəsilə" sözləri əlavə edilsin;

2.3.2. 52.4-cü maddəyə "sazişi" sözündən sonra ", yaxud mübahisənin mediasiya vasitəsilə həlli" sözləri əlavə edilsin;

2.4. 55.2-ci maddədə "həmin kateqoriya mübahisələr üçün qanunda və ya müqavilələrdə nəzərdə tutulmuş, kommersiya məhkəməsində cavabdehlə mübahisənin məhkəməyə qədər həlli (pretenziya) qaydasına" sözləri "bu Məcəllənin 4.3 - 4.6-cı maddələrində müəyyən edilmiş qaydalara" sözləri ilə əvəz edilsin;

2.5. 59.2-ci maddənin birinci cümləsinə "şəxslər" sözündən sonra "mübahisənin mediasiya vasitəsilə həllinə razılıq vermək və ya" sözləri əlavə edilsin və həmin cümlədə "hüququndan" sözü "hüquqlarından" sözü ilə əvəz edilsin;

2.6. 74.2-ci maddəyə "tapşırılması," sözündən sonra "mübahisənin mediasiya vasitəsilə həllinə razılıq verilməsi," sözləri əlavə edilsin;

2.7. 191-ci maddə üzrə:

2.7.1. 191.1-ci maddəyə hər iki halda "etiraf etməsi" sözlərindən sonra ", mübahisənin mediasiya vasitəsilə həllinə dair tərəflərin razılığı" sözləri əlavə edilsin;

2.7.2. aşağıdakı məzmunda 191.2-1-ci maddə əlavə edilsin:

"191.2-1. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə, barışıq sazişi, həll edilmədikdə isə mediasiya prosesinin nəticələri barədə protokol məhkəməyə təqdim olunur. Tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad çıxararaq, bu qərardadla eyni zamanda iş üzrə icraata xitam verir. Məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişinin şərtləri qərardadda göstərilməlidir.";

2.7.3. 191.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"191.4. Məhkəmə iddiaçının iddiadan imtina etməsini, cavabdehin iddianı etiraf etməsini qəbul etmədikdə, tərəflərin barışıq sazişini təsdiq etmədikdə və ya mübahisə mediasiya vasitəsilə həll edilmədikdə bununla bağlı əsaslandırılmış qərardad çıxarır və işə mahiyyəti üzrə baxılmasını davam etdirir.";

2.8. 306.1-ci maddədə "30 - 40-6-cı fəsillərində" sözləri "ikinci bölməsinin üçüncü yarımbölməsində" sözləri ilə əvəz edilsin;

2.9. aşağıdakı məzmunda 40-7-ci fəsil əlavə edilsin:

**"Fəsil 40-7.**
**Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsinə dair işlər üzrə icraat**

**Maddə 355-23. Ərizənin verilməsi**

355-23.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

355-23.2. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizə ərizəçi fiziki şəxsin yaşadığı yer, hüquqi şəxsin ünvanının olduğu yer üzrə, ərizə dövlət orqanı (qurumu) tərəfindən verildikdə, barışıq sazişinin icrasından imtina edən fiziki şəxsin yaşadığı,

hüquqi şəxsin ünvanının olduğu yer üzrə məhkəməyə verilir.

**Maddə 355-24. Ərizənin məzmunu**

Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizədə barışıq sazişinin könüllü icrası üçün "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 34.1-ci maddəsi ilə müəyyən olunmuş müddətin keçməsi və ərizəçinin xahişi göstərilməlidir.

**Maddə 355-25. Ərizəyə baxılma qaydası və qətnamənin qəbul edilməsi**

355-25.1. Barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizəyə məhkəməyə daxil olduqdan sonra 10 gün müddətində baxılır.

355-25.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir, lakin həmin şəxslərin üzrlü səbəb olmadan məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. İşdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda, məhkəmə işin baxılmasını təxirə salır.

355-25.3. Məhkəmə ərizəyə baxarkən bu Məcəllənin 355-26-cı maddəsində sadalanmış halların olub-olmadığını müəyyən edir və barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə qətnamə qəbul edir.

355-25.4. Qətnamənin surəti bu Məcəllənin 227.3-cü maddəsinə uyğun olaraq tərəflərə verilir.

**Maddə 355-26. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina olunması**

355-26.1. Məhkəmə aşağıdakı hallarda barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina edir:

355-26.1.1. barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda;

355-26.1.2. barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

355-26.2. Barışıq sazişinin bir hissəsinin təsdiq edilməsinə o hallarda yol verilir ki, təsdiq edilməsindən imtina edilən hissənin təsdiq edilən hissədən ayrılması mümkün olsun.".

**Maddə 3.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 126; 2002, N 12, maddə 702; 2004, N 7, maddə 505; 2006, N 2, maddə 66, N 11, maddə 923, N 12, maddələr 1005, 1006; 2007, N 1, maddə 4, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1218; 2008, N 7, maddə 602; 2010, N 2, maddə 70, N 3, maddə 171, N 5, maddə 380, N 7, maddə 578; 2011, N 7, maddələr 585, 620, N 12, maddə 1110; 2014, N 12, maddə 1515; 2019, N 2, maddə 185, N 3, maddə 372, N 5, maddə 800; N 12, maddə 1906; 2020, N 7, maddə 832, N 12 (I kitab), maddə 1424; 2021, N 4, maddə 308) aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Ailə münasibətlərindən irəli gələn mübahisələrin mediasiya vasitəsilə həlli**

"Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə uyğun olaraq ailə münasibətlərindən irəli gələn mübahisələr mediasiya yolu ilə həll oluna bilər. Ailə münasibətlərindən irəli gələn mübahisələrlə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.";

3.2. aşağıdakı məzmunda 38.4-1-ci maddə əlavə edilsin:

"38.4-1. Nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilə bilər.".

**Maddə 4.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (I kitab), maddə 250, N 5, maddə 323; 2002, N 12, maddə 709; 2003, N 8, maddə 420; 2004, N 3, maddə 123, N 5, maddə 318, N 6, maddə 415, N 10, maddə 761, N 11, maddə 901; 2005, N 2, maddə 61, N 6, maddə 466, N 8, maddələr 684, 692, 693, N 11, maddə 996, N 12, maddə 1085; 2006, N 2, maddə 68, N 3, maddə 225, N 5, maddə 387, N 6, maddə 478, N 8, maddə 657, N 12, maddə 1005; 2007, N 2, maddə 80, N 6, maddə 560, N 8, maddə 745, N 10, maddə 937, N 11, maddə

1053, N 12, maddələr 1215, 1219; 2008, N 3, maddə 145, N 6, maddə 456, N 7, maddə 602, N 12, maddə 1049; 2009, N 2, maddə 47, N 5, maddə 295, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 2, maddə 75, N 3, maddə 171, N 4, maddələr 265, 266, 276; 2011, N 2, maddə 71, N 7, maddə 586, N 8, maddə 750, N 12, maddələr 1073, 1102; 2012, N 1, maddə 5, N 5, maddə 403, N 6, maddə 498; 2013, N 1, maddə 15, N 6, maddə 620, N 11, maddə 1280, N 12, maddələr 1469, 1478; 2014, N 2, maddə 96, N 7, maddə 768; 2015, N 3, maddə 254, N 5, maddə 512, N 7, maddə 814, N 10, maddə 1093; 2016, N 1, maddə 26, N 2 (I kitab), maddələr 186, 204, N 3, maddə 401, N 4, maddələr 640, 646, N 6, maddə 1005, N 7, maddə 1248, N 12, maddələr 1998, 2018; 2017, N 2, maddələr 151, 153, N 4, maddə 524, N 5, maddələr 703, 735, N 6, maddə 1035, N 11, maddə 1953, N 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, N 2, maddə 142, N 4, maddə 650, N 5, maddələr 845, 851, N 11, maddə 2212, N 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, N 1, maddələr 23, 50, N 5, maddələr 806, 812, 814, N 6, maddələr 994, 996, N 7, maddə 1202, N 8, maddə 1369, N 11, maddə 1681, N 12, maddə 1908; 2020, N 5, maddə 515, N 7, maddələr 822, 832, 839, 843, N 12 (I kitab), maddələr 1423, 1435; 2021, N 1, maddə 8; 2021, N 4, maddə 307) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 379.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 379.1.6-cı maddə əlavə edilsin:

"379.1.6. tərəflər arasında yaranmış mübahisə üzrə mediasiya prosesi tətbiq edildikdə.";

4.2. aşağıdakı məzmunda 379.4-1-ci maddə əlavə edilsin:

"379.4-1. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar dayandırılmış iddia müddətinin axımı "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tarixdən davam edir.".

**Maddə 5.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (I kitab), maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12 (I kitab), maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2 (I kitab), maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149, N 5, maddə 863, N 6, maddə 1193, N 7 (I kitab), maddələr 1414, 1427, N 10, maddə 1962, N 11, maddələr 2186, 2210, N 12 (I kitab), maddələr 2498, 2509; 2019, N 1, maddə 30, N 4, maddə 590, N 5, maddələr 796, 801, 804, 812, 814, N 8, maddələr 1364, 1373, 1378, N 12, maddə 1894; 2020, N 5, maddə 522, N 6, maddələr 668, 678, N 7, maddə 832, N 8, maddə 1013, N 11, maddələr 1328, 1334, N 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, N 3, maddə 211) 99.3.12-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 99.3.13-cü maddə əlavə edilsin:

"99.3.13. mediator fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən bu fəaliyyətlə bağlı göstərilən xidmətə görə alınan haqq, o cümlədən əldə olunan mükafat.".

**Maddə 6.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə

455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421, N 11, maddə 2235, N 12 (I kitab), maddə 2515; 2019, N 7, maddələr 1198, 1200, N 12, maddə 1898; 2020, N 6, maddə 675, N 7, maddələr 832, 852, 856, Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 301-VIQD nömrəli Qanunu) 95.2.4-cü maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 95.2.5-ci maddə əlavə edilsin:

"95.2.5. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya zamanı məlum olan məlumatlar barədə mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər.".

**Maddə 7.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752, N 11, maddə 1976; 2018, N 5, maddələr 855, 878, N 7 (I kitab), maddə 1440; 2019, N 1, maddə 23, N 7, maddə 1199, N 12, maddə 1899; 2020, N 6, maddə 669) aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 7.3-cü, 19.1.4-1-ci, 38.4-cü və 49.1.1-1-ci maddələr əlavə edilsin:

"7.3. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.";

"19.1.4-1. o, məhkəmədə baxılan inzibati mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;";

"38.4. Mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.";

"49.1.1-1. işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif etmək;";

7.2. 15.2-ci maddəyə "baxılmasını" sözündən sonra "bilavasitə özləri tərəfindən, yaxud mediasiya vasitəsilə bağlanılmış" sözləri əlavə edilsin;

7.3. 66.2-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Barışıq sazişi qanuna zidd olarsa və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozarsa, məhkəmə barışıq sazişini təsdiqləməkdən imtina etməlidir.".

**Maddə 8.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N

7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44, N 3, maddələr 374, 389, N 4, maddələr 579, 581, 587, 595, N 5, maddələr 791, 800, 803, 804, 813, N 6, maddələr 992, 998, 1007, N 7, maddə 1193, N 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, N 11, maddələr 1682, 1686, 1696, N 12, maddələr 1883, 1900; 2020, N 3, maddə 222, N 5, maddələr 505, 515, 519, N 6, maddələr 670, 672, 681, N 7, maddələr 838, 841, 846, 854, N 8, maddələr 1008, 1011, N 9, maddə 1138, N 11, maddələr 1332, 1333, 1336, N 12 (I kitab), maddələr 1432, 1440; 2021, N 4, maddə 306; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 287-VIQD nömrəli, 23 aprel tarixli 294-VIQD və 301-VIQD nömrəli, 4 may tarixli 310-VIQD nömrəli, 27 may tarixli 331-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 43.1-ci maddəyə "603" rəqəmlərindən əvvəl "602-2," rəqəmləri əlavə edilsin;

8.2. 68.0.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 68.0.4-cü maddə əlavə edilsin:

"68.0.4. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya zamanı məlum olan məlumatlar barədə mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər.";

8.3. aşağıdakı məzmunda 602-2-ci maddə əlavə edilsin:

**"Maddə 602-2. Mediasiya haqqında qanunvericiliyin pozulması**

602-2.1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Mediasiya Şurasının üzvlüyünə qəbul edilmədən fiziki şəxsin mediator fəaliyyəti ilə məşğul olmasına, hüquqi şəxsin mediasiya təşkilatı kimi və (və ya) mediasiya təlimi sahəsində fəaliyyət göstərməsinə görə -

fiziki şəxslər min manat məbləğində, vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.

602-2.2. Mediasiya təşkilatları, mediatorlar və mediasiya təlimi qurumları tərəfindən mediasiya reyestrində onlar haqqında olan məlumatlarda baş vermiş dəyişikliklər barədə "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada və müddətdə məlumatın verilməməsinə görə -

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.

602-2.3. Mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş konfidensiallıqla bağlı qaydaların pozulmasına görə -

fiziki şəxslər səkkiz yüz manat məbləğində, vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.

602-2.4. Mediasiya zamanı mediatorun fəaliyyətinə müdaxilə edilməsinə görə -

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər səkkiz yüz manat məbləğində cərimə edilir.

602-2.5. Mediator tərəfindən uşağın maraqlarına toxunan ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinin alınmamasına, habelə ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən hallar (və ya belə halların yaranma ehtimalı olduğu) barə-

də məlumatların, həmçinin uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan barışıq sazişinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

beş yüz manat məbləğində cərimə edilir.".

**Maddə 9.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 348; 1999, N 11, maddə 609; 2000, N 11, maddə 776; 2001, N 9, maddə 576, N 12, maddələr 733, 736; 2002, N 12, maddə 706; 2004, N 7, maddə 505, N 12, maddə 976; 2005, N 1, maddə 2, N 12, maddə 1082; 2006, N 11, maddə 923, N 12, maddə 1018; 2007, N 1, maddə 4, N 12, maddə 1193; 2008, N 2, maddə 49, N 4, maddə 254, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 970; 2010, N 4, maddə 276, N 11, maddə 949; 2011, N 10, maddə 883; 2013, N 11, maddə 1284, N 12, maddə 1487; 2014, N 10, maddə 1171; 2016, N 4, maddə 657, N 6, maddə 971; 2017, N 3, maddə 336, N 7, maddə 1279; 2018, N 3, maddələr 369, 396, N 5, maddələr 870, 894, N 12 (I kitab), maddə 2502; 2019, N 1, maddə 35, N 3, maddə 380; 2020, N 5, maddə 521, N 6, maddə 667, N 7, maddə 826, N 8, maddə 1015, N 12 (I kitab), maddə 1450) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 12-ci maddəyə "üzvləri;" sözündən sonra "mediatorlar;" sözü əlavə edilsin;

9.2. 14.5.5-ci maddəyə "üzvləri," sözündən sonra "sərbəst mediatorlar," sözləri əlavə edilsin.

**Maddə 10.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 4; 2001, N 3, maddə 141; 2007, N 12, maddə 1212; 2008, N 11, maddə 960; 2014, N 4, maddə 331; 2015, N 4, maddə 352; 2016, N 3, maddə 419; 2018, N 4, maddə 651; 2019, N 1, maddələr 36, 47, N 12, maddə 1904; 2020, N 3, maddə 227, N 5, maddə 521, N 12 (I kitab), maddə 1426) 15-2.2.2-ci maddəsinə "üzvləri" sözündən sonra ", mediatorlar" sözü əlavə edilsin.

**Maddə 11.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 740; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 23, N 8, maddə 428, N 12 (I kitab), maddələr 676, 698; 2005, N 1, maddə 1, N 6, maddə 462, N 8, maddə 684, N 10, maddələr 873, 905, N 12, maddə 1083; 2006, N 3, maddələr 223, 225, N 6, maddə 481, N 12, maddələr 1015, 1029; 2007, N 2, maddə 80, N 12, maddə 1203; 2008, N 3, maddə 158, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1047; 2009, N 1, maddə 5, N 2, maddə 56, N 3, maddə 160, N 7, maddə 519, N 12, maddə 947; 2010, N 4, maddə 276, N 6, maddə 485, N 10, maddə 840, N 11, maddə 939; 2011, N 1, maddə 12, N 4, maddələr 245, 264, N 11, maddə 985, N 12, maddə 1100; 2012, N 1, maddə 4, N 6, maddələr 508, 518, N 7, maddə 646, N 10, maddə 947, N 12, maddələr 1216, 1227, 1229; 2013, N 3, maddə 213, N 5, maddə 474, N 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, N 12, maddələr 1485, 1504; 2014, N 1, maddə 6, N 5, maddə 468, N 6, maddələr 603, 605, N 7, maddələr 774, 780, N 11, maddələr 1345, 1370; 2015, N 12, maddə 1432; 2016, N 1, maddələr 15, 36, N 4, maddə 630, N 5, maddə 849, N 6, maddə 1014, N 10, maddə 1605, N 11, maddələr 1753, 1776, 1780, 1790, N 12, maddələr 2006, 2051; 2017, N 3, maddələr 337, 341, N 5, maddə 742, N 6, maddə 1028, N 7, maddə 1308, N 8, maddə 1506, N 12 (I kitab), maddə 2265; 2018, N 3, maddə 405, N 4, maddələr 639, 647, N 6, maddələr 1186, 1194, N 7 (I kitab), maddələr 1415, 1444, N 8, maddə 1675, N 12 (I kitab), maddə 2489; 2019, N 1, maddə 45, N 4, maddələr 571, 596, N 5, maddə 797, N 7, maddələr 1176, 1181, 1190, 1192, N 8, maddələr 1360, 1363, 1371, N 11, maddələr 1681, 1694; 2020, N 5, maddələr 521, 524, N 6, maddə 665, N 7, maddələr 824, 828, 837, 851, 853, N 11, maddə 1327, N 12 (I kitab), maddə 1423; 2021, N 2, maddə 117) aşağıdakı məzmunda 9.1-1-ci maddə əlavə edilsin:

"9.1-1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiya prosesinin nəticəsinə dair barışıq sazişi bağlanmadıqda məhkəməyə müraciət edərkən mediasiya prosesi ilə bağlı xərc-

lərin öz üzərinə düşən hissəsini ödəmiş tərəf və ya həmin Qanunun 36.2-ci maddəsinə uyğun olaraq mediasiya xərclərini ödəmiş tərəf dövlət rüsumunu ödəməkdən azad olunur. Bu Qanunda nəzərdə tutulmuş dövlət rüsumunun məbləği çəkilmiş xərclərdən artıq olduqda, tərəf çəkdiyi xərc həddində dövlət rüsumundan azad edilir.".

**Maddə 12.** "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 1, maddə 8, N 8, maddə 686; 2006, N 1, maddə 4; 2007, N 4, maddə 321; 2010, N 7, maddə 596; 2011, N 2, maddə 71, N 6, maddə 484; 2012, N 12, maddə 1228; 2013, N 12, maddə 1467; 2014, N 7, maddə 783; 2015, N 2, maddə 99, N 4, maddə 347, N 11, maddə 1287; 2016, N 12, maddə 2032; 2017, N 6, maddə 1044, N 12 (I kitab), maddə 2188; 2018, N 7 (I kitab), maddə 1443; 2019, N 12, maddə 1902; 2020, N 7, maddə 845; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 289-VIQD nömrəli Qanunu) 13.3-cü maddəsinin ikinci cümləsinə "məlumatlar" sözündən sonra ", habelə "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiyaya yönəldilən işlərin sayı" sözləri əlavə edilsin.

**Maddə 13.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 12, maddə 1084; 2006, N 12, maddə 1031; 2008, N 6, maddə 462; 2011, N 7, maddə 592; 2014, N 12, maddə 1516; 2016, N 4, maddə 643; 2018, N 12 (I kitab), maddələr 2470, 2530; 2019, N 1, maddələr 5, 21, N 2, maddə 184, N 12, maddə 1901; 2020, N 6, maddə 669, N 7, maddə 829) aşağıdakı məzmunda 42.1.3-1-ci və 80-1-ci maddələr əlavə edilsin:

"42.1.3-1. həmin iş üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;";

**"Maddə 80-1. İnzibati mübahisələrin mediasiya vasitəsilə həll edilməsi**

80-1.1. İnzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi, yaxud inzibati orqanın digər hərəkət və ya hərəkətsizliyindən irəli gələn mübahisələr (bu Qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş mübahisələr (o cümlədən "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati ərazi vahidləri arasında ərazi məsələləri ilə bağlı mübahisələr) istisna olmaqla) "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, mediasiya vasitəsilə həll oluna bilər.

80-1.2. Maraqlı şəxslə inzibati orqan arasında mübahisənin mediasiya vasitəsilə həlli məqsədilə mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlandıqda, müvafiq olaraq bu Qanunun 73-cü maddəsində nəzərdə tutulmuş müddətin axımı və ya inzibati şikayət üzrə icraat dayandırılır.

80-1.3. Mübahisə mediasiya vasitəsilə həll edildikdə, inzibati orqan barışıq sazişini şikayət instansiyasına təqdim edir. Bununla bağlı şikayət instansiyası tərəfindən inzibati şikayət üzrə icraata xitam verilir.

80-1.4. Mübahisə mediasiya vasitəsilə həll edilmədikdə inzibati orqan mediasiya prosesinin nəticələri barədə protokolu şikayət instansiyasına təqdim edir. Bununla bağlı bu Qanunun 78-ci maddəsində nəzərdə tutulmuş müddətin axımı bərpa olunur və şikayət instansiyası inzibati şikayətə baxır.

80-1.5. Mediasiya prosesinin nəticəsində bağlanılmış barışıq sazişində müvafiq inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə müvafiq hərəkətin (hərəkətsizliyin) edilməsi öz əksini tapır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2021-ci il*
*N360-VIQD*

## "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, N 4, maddə 597; 2020, N 6, maddə 683, N 7, maddə 856, N 12 (I kitab), maddə 1442) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1-ci maddədə "hüquqi şəxsdir" sözləri "qeyri-kommersiya hüquqi şəxsidir" sözləri ilə əvəz edilsin.

2. 21.10-cu və 29.4-cü maddələr ləğv edilsin.

3. 26.5-ci maddədə "Tərəflər" sözü "Mediator" sözü ilə, "borcludurlar" sözü "borcludur" sözü ilə əvəz edilsin.

4. 28.4-cü maddədə "mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə" sözləri "Mediasiya Şurası" sözləri ilə əvəz edilsin.

5. 31-ci maddə üzrə:

5.1. 31.1-ci və 31.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"31.1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.";

"31.4. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə barışıq sazişi məhkəməyə təqdim olunur. Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə icraata xitam verilir.";

5.2. 31.5-ci maddədən "və bu Qanuna uyğun olaraq barışıq sazişinin əldə edilməsi əsasında icraata xitam verilən məhkəmə işlərinin sayı" sözləri çıxarılsın.

6. 33.3-cü maddədə "qüvvədə olan qanunvericiliyə" sözləri "qanuna" sözü ilə əvəz edilsin.

7. 34.3-cü maddədən "və ya notariusa" sözləri və 34.4-cü maddədən "və ya notarius" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2021-ci il*
*N361-VIQD*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 740; 2002, N 12, maddə 706; 2003, N 1, maddə 23, N 8,

maddə 428, N 12 (I kitab), maddələr 676, 698; 2005, N 1, maddə 1, N 6, maddə 462, N 8, maddə 684, N 10, maddələr 873, 905, N 12, maddə 1083; 2006, N 3, maddələr 223, 225, N 6, maddə 481, N 12, maddələr 1015, 1029; 2007, N 2, maddə 80, N 12, maddə 1203; 2008, N 3, maddə 158, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1047; 2009, N 1, maddə 5, N 2, maddə 56, N 3, maddə 160, N 7, maddə 519, N 12, maddə 947; 2010, N 4, maddə 276, N 6, maddə 485, N 10, maddə 840, N 11, maddə 939; 2011, N 1, maddə 12, N 4, maddələr 245, 264, N 11, maddə 985, N 12, maddə 1100; 2012, N 1, maddə 4, N 6, maddələr 508, 518, N 7, maddə 646, N 10, maddə 947, N 12, maddələr 1216, 1227, 1229; 2013, N 3, maddə 213, N 5, maddə 474, N 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, N 12, maddələr 1485, 1504; 2014, N 1, maddə 6, N 5, maddə 468, N 6, maddələr 603, 605, N 7, maddələr 774, 780, N 11, maddələr 1345, 1370; 2015, N 12, maddə 1432; 2016, N 1, maddələr 15, 36, N 4, maddə 630, N 5, maddə 849, N 6, maddə 1014, N 10, maddə 1605, N 11, maddələr 1753, 1776, 1780, 1790, N 12, maddələr 2006, 2051; 2017, N 3, maddələr 337, 341, N 5, maddə 742, N 6, maddə 1028, N 7, maddə 1308, N 8, maddə 1506, N 12 (I kitab), maddə 2265; 2018, N 3, maddə 405, N 4, maddələr 639, 647, N 6, maddələr 1186, 1194, N 7 (I kitab), maddələr 1415, 1444, N 8, maddə 1675, N 12 (I kitab), maddə 2489; 2019, N 1, maddə 45, N 4, maddələr 571, 596, N 5, maddə 797, N 7, maddələr 1176, 1181, 1190, 1192, N 8, maddə 1371, N 11, maddələr 1681, 1694; 2020, N 5, maddələr 521, 524, N 6, maddə 665, N 7, maddələr 824, 828, 837, 851, 853, 1327, N 12 (I kitab), maddə 1423; 2021, N 2, maddə 117; Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 325-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.0.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"2.0.1. məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsi, məhkəmə aktının surətinin təkrar verilməsi;";

1.2. 2.0.23-cü maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.0.24-cü maddə əlavə edilsin:

"2.0.24. özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün şəhadətnamənin verilməsi.";

1.3. 4-cü maddə üzrə:

1.3.1. 4.1-ci maddədə "4.1-4-cü" sözləri "4.1-5-ci" sözləri ilə əvəz edilsin;

1.3.2. 4.1-5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.1-5. Bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumlarının 50 faizi (ödənilən hər bir dövlət rüsumu üzrə 5000 manatdan çox olmamaq şərtilə) müvafiq məhkəmələrin aparatlarının işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədilə müvafiq olaraq Azərbaycan Respublikasının Ali Məhkəməsinin, apellyasiya instansiyası məhkəmələrinin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesablarına köçürülür, qalan hissəsi isə dövlət büdcəsinə ödənilir.";

1.3.3. aşağıdakı məzmunda 4.1-6-cı maddə əlavə edilsin:

"4.1-6. Bu Qanunun 4.1-ci və 4.1-1 - 4.1-5-ci maddələrində nəzərdə tutulan vəsaitlərdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

1.4. 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 8. Məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsinə, məhkəmə aktının surətinin təkrar verilməsinə görə dövlət rüsumunun dərəcələri**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 8.1 Qiymətləndirilən iddia ərizəsinin verilməsinə görə: | |
| 8.1.1 iddia qiyməti 1.000 manatadək olduqda | 30 manat |

| | |
|---|---|
| 8.1.2. iddia qiyməti 1.000 manatdan 10.000 manatadək olduqda | 30 manat + 1.000 manatdan yuxarı olan iddia qiymətinin 1 faizi |
| 8.1.3. iddia qiyməti 10.000 manatdan 100.000 manatadək olduqda | 120 manat + 10.000 manatdan yuxarı olan iddia qiymətinin 0,3 faizi |
| 8.1.4. iddia qiyməti 100.000 manatdan 1.000.000 manatadək olduqda | 390 manat + 100.000 manatdan yuxarı olan iddia qiymətinin 0,1 faizi |
| 8.1.5. iddia qiyməti 1.000.000 manatdan çox olduqda | 1.290 manat + 1.000.000 manatdan yuxarı olan iddia qiymətinin 0,05 faizi (hər bir halda 50.000 manatdan çox olmamaqla) |
| 8.1.6. Fiziki şəxs tərəfindən mülkiyyətində, istifadəsində (icarəsində) olan yaşayış evi, mənzil, həyətyanı sahənin torpağı, o cümlədən bağ sahəsi ilə bağlı ərizənin verilməsinə, habelə fiziki şəxs tərəfindən istifadəsində (icarəsində) olan kənd təsərrüfatı təyinatlı torpaqla bağlı ərizənin verilməsinə görə | 100 manat |
| 8.2. Qiymətləndirilməyən iddia ərizəsinin, məhkəmə əmri haqqında ərizənin, xüsusi icraat qaydasında baxılan iş üzrə ərizənin verilməsinə görə | 100 manat |
| 8.3. İddia predmetinə dair müstəqil tələb irəli sürən üçüncü şəxsin işə qoşulması barədə ərizənin verilməsinə görə | bu Qanunun müvafiq olaraq 8.1-ci və ya 8.2-ci maddələrində müəyyən edilmiş dövlət rüsumu |
| 8.4. Müvəqqəti təminat tədbiri barədə ərizənin verilməsinə görə | bu Qanunun müvafiq olaraq 8.1-ci və ya 8.2-ci maddələrində müəyyən edilmiş dövlət rüsumunun 10 faizi (hər bir halda 10 manat-dan az olmamaqla) |
| 8.5. İş üzrə icraata xitam verilməsi, iddianın baxılmamış saxlanılması və məhkəmə cərimələrinin qoyulması, müvəqqəti təminat tədbirinin tətbiqi və ya bundan imtina barədə qərardaddan şikayət verilməsinə görə | 50 manat |
| 8.6. Apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayətinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üçün ərizənin verilməsinə görə | bu Qanunun müvafiq olaraq 8.1-ci və 8.2-ci maddələrində müəyyən edilmiş dövlət rüsumunun 50 faizi |
| 8.7. Məhkəmə aktının surətinin təkrarən verilməsinə görə | 10 manat və 10-cu səhifədən yuxarı hər səhifəyə görə 0,2 manat |

1.5. 9-cu maddə üzrə:

1.5.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsinə, məhkəmə aktının surətinin təkrar verilməsinə görə dövlət rüsumunun ödənilməsindən azadolmalar və dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri";**

1.5.2. 9.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"9.1.8. itirilmiş məhkəmə icraatının və ya icra üzrə icraatın bərpa edilməsi barədə verilən ərizə üzrə - tərəflər;";

1.5.3. 9.1.9 - 9.1.11-ci, 9.1.15-ci və 9.1.19-cu maddələr ləğv edilsin;

1.5.4. 9.1.12-ci maddədə "vətəndaş, inzibati orqanlar və vəzifəli şəxslər" sözləri "tərəflər" sözü ilə əvəz edilsin;

1.5.5. 9.1.13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"9.1.13. təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxsə vurulmuş ziyanın ödənilməsi haqqında mübahisələr üzrə - tərəflər;";

1.5.6. 9.1.17-ci maddədə "məhkəmə" sözü "iş üzrə icraata xitam verilməsi, iddianın baxılmamış saxlanılması, məhkəmə cərimələrinin qoyulması və müvəqqəti təminat tədbirinin tətbiqi və ya bundan imtina barədə qərardadlar istisna olmaqla, digər məhkəmə" sözləri ilə əvəz edilsin;

1.6. aşağıdakı məzmunda 33-7-ci maddə əlavə edilsin:

**"Maddə 33-7. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün şəhadətnamənin verilməsinə görə tutulan dövlət rüsumunun dərəcəsi**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün şəhadətnamənin verilməsi | 100 manat |

**Maddə 2. Keçid müddəaları**

2.1. Bu Qanun 2021-ci il oktyabrın 1-dən qüvvəyə minir.

2.2. Bu Qanun onun qüvvəyə minməsindən sonra verilən iddia ərizələri və digər ərizələrə, habelə şikayətlərə görə ödənilən dövlət rüsumlarına şamil edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2021-ci il*
*N 364-VIQD*

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 18 Tiraj:1000 ədəd